ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

№ 24 (1286) ❖ Cümə, 2 iyul 2021-ci il ❖ Qəzet 1984-cü ildən nəşr olunur

Prezident İlham ƏLİYEV:

"Çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır"

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə "Gülüstan" sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşüb.

Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı görüşdə nitq söyləyib. Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə təbrik edib.

Tədbirdə Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

"Biz Silahlı Qüvvələr Gününü hər il təntənə ilə qeyd edirdik... Hər il 26 iyun tarixində hərbçilərlə görüşlər əsnasında mən deyirdim ki, gün gələcək biz öz doğma torpağımıza qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Deyirdim ki, əgər bu, danışıqlar yolu ilə mümkün olmayacaqsa, məsələni hərbi yolla həll edəcəyik. Belə də oldu. Uzun illər davam edən danışıqlar heç bir nəticə vermədi və Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında təmin etmişdir", - deyə Prezident İlham Əliyev bildirib.

Dövlət başçısı tarixə nəzər salaraq qeyd edib ki, Ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycanda işlər müsbət istiqamətdə yön alıb. Ordu quruculuğu sahəsində böyük islahatlar aparılıb. Nizami ordu quruculuğuna məhz o illərdə başlanılıb.

Prezident İlham Əliyev bildirib ki, son illər ərzində aparıcı beynəlxalq təşkilatlar - BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, hətta daim bizə qarşı ədalətsiz mövqe sərgiləyən Avropa Parlamenti, Avropa Şurası məcbur olub həqiqəti əks etdirən, bizim maraqlarımıza cavab verən qərar və qətnamələr qəbul ediblər. Eyni zamanda, ikitərəfli formatda bir çox ölkələrlə bərabərhüquqlu və qarşılıqlı maraqlar üzərində qurduğumuz münasibətlər bizim gücümüzü artırırdı. Qardaş ölkələr - Türkiyə başda olmaqla Pakistan və Əfqanıstan, o cümlədən, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər ölkələr müharibənin ilk saatlarından bizə öz dəstəyini göstərirdi. Bu, əyani şəkildə onu göstərir ki, bizim nə qədər güclü beynəlxalq dəstəyimiz vardır.

"Bu gün iqtisadi göstəricilərə görə Azərbaycan dünyada aparıcı yerlərdədir. Təkcə onu demək kifayətdir ki, bu gün inkişaf etmiş ölkələrdə xarici borc o ölkələrin ümumi daxili məhsulundan daha çoxdur. Amma Azərbaycanda xarici borc ümumi daxili məhsulun heç 20 faizini təşkil etmir... Ona görə iqtisadi müstəqilliyi əldə etmək, özü də çətin geosiyasi vəziyyətdə və o qədər də böyük maliyyə resursumuz olmayan dövrdə əsl siyasi məharət və uzaqgörənlik tələb edirdi və biz buna nail olduq. Azərbaycan artıq neçə ildir ki, heç kimdən asılı deyil. Əksinə, Azərbaycan özü kömək göstərir, Azərbaycan donor ölkədir, pandemiya dövründə 30-dan çox ölkəyə kömək göstərib və bu ölkələr bizim dost ölkələrimizdir. Onlar da öz növbəsində bizi dəstəkləyirlər. Kim bizi müdafiə etdi? BMT Təhlükəsizlik Şurasında təmsil olunan Qoşulmama Hərəkatına üzv ölkələr. Məhz onların səyi nəticəsində anti-Azərbaycan bəyanat qəbul edilmədi", - deyə dövlət başçısı bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, beynəlxalq müstəvidə hazırlıqla bərabər, ölkəmizdə iqtisadi və hərbi sahədə də çoxşaxəli hazırlıq gedirdi. İkinci Qarabağ müharibəsi bizim imkanlarımızı bütün dünyaya göstərdi. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordumuzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, ordumuzun döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması - bütün bunlar məqsədyönlü şəkildə apardığımız siyasətin tərkib hissəsi idi.

"Biz indi böyük quruculuq işlərinə start vermişik. Baxın, müharibədən cəmi 7 ay keçib, nə qədər böyük işlər görmüşük. Bu gün misli görünməmiş bərpa işləri aparılır. Nəyin hesabına? Məhz hazırlıq hesabına. Ona görə biz güclü dövlət yaratmışıq, mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır. Bizim hazırlıq işlərinin aparılmasında əsas amil xalq-iqtidar birliyi olmuşdur. Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir, bizim siyasətimizə böyük inam var. Müharibə və onun nəticələri bir daha Azərbaycan xalqını əmin etdi ki, bu inamı bizə Azərbaycan xalqı bəxş etmişdir", - deyə dövlət başçısı qeyd edib.

İkinci Qarabağ müharibəsinin bizim şanlı tariximiz olduğunu deyən Prezident İlham Əliyev bu tarixin Azərbaycan xalqının ürəyində əbədi yaşayacağını vurğulayıb: "Biz güclü iradə göstərdik, cəsarət göstərdik, milli ruh nümayiş etdirdik və istədiyimizə nail olduq. Bir daha demək istəyirəm ki, İkinci Qarabağ müharibəsi şanlı tarix kimi, şanlı qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılıb. Azərbaycan bundan sonra müzəffər ölkə kimi yaşayacaq, Ermənistan bundan sonra məğlub edilmiş ölkə kimi yaşayacaq...Biz İkinci Qarabağ müharibəsinin nəticələrini və gedişatını düzgün təhlil edərək, əlbəttə ki, öz hərbi gücümüzü artıracağıq. Ermənistanın isə, əgər onlar yenə də bizə qarşı düşmənçilik siyasətindən əl çəkməsələr, nəinki hərbi gücünü, nəinki dağılmış, məhv edilmiş ordusunu bərpa etmək imkanı olmayacaq, eyni zamanda, iqtisadi fəallığı bərpa etmək imkanları da çox məhduddur...Ona görə Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Onlar bilməlidirlər ki, dəmir yumruq yerindədir".

Prezident İlham Əliyev tədbirin sonunda səmimi arzularını bildirib: "Əziz hərbçilər, bu gözəl bayram günündə sizinlə görüşmək mənim üçün çox xoşdur. Silahlı Qüvvələr Gününü biz Müzəffər Ordu kimi, qəhrəman xalq kimi qeyd edirik. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!".



AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Akademiya əməkdaşlarına təbriki

səh. 2 ⇨

Azərbaycanda ilk dəfə "Riyazi biologiya, bioinformatika" ixtisası üzrə dissertasiya işi müdafiə olunub

səh. 3 ⇨

MEK-in "Qarabağ müharibəsi qəhrəmanları" fondunun açılışı olub

səh. 4 ⇨

Vətən müharibəsində şücaət göstərmiş AMEA əməkdaşları təltif olunublar

səh. 5 ⇨

AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Akademiya əməkdaşlarına təbriki

Hörmətli həmkarlar!

Bu il 103 yaşını qeyd etdiyimiz Azərbaycan Silahlı Qüvvələri dövlət müstəqilliyimizin qarantı, xalqımızın güvən yeri və Azərbaycan xalqının şücaət rəmzidir.

1918-ci il mayın 28-də müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi xarici müdaxilələrdən qorunmaq, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün silahlı qüvvələrin yaradılmasının vacibliyini dərk edirdi və həmin il iyunun 26-da AXC-nin Nazirlər Şurasının qərarı ilə Əlahiddə Korpus yaradıldı, avqustun 1-də isə Hərbi Nazirlik təsis olundu. General Səməd bəy Mehmandarov və general-leytenant Əliağa Şıxlinskinin rəhbərliyi altında qısa müddətdə Milli Ordu quruculuğuna başlanıldı və bir çox hərbi uğurlara imza atıldı.

Cümhuriyyətin süqutundan sonra AXC-nin yarım qalmış Milli Ordu quruculuğu siyasətini görkəmli dövlət xadimi, Ulu öndər Heydər Əliyev öz üzərinə götürərək Azərbaycan xalqı və dövləti qarşısında növbəti tarixi missiyasını həyata keçirdi və 1971-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyin açılmasına nail oldu. Ümummilli lider Heydər Əliyev həmin illərdə sovet rəhbərliyinin azərbaycanlı gənclərin peşəkar hərbçi kimi yetişməsinin qarşısını alan siyasətini məharətlə dəf etməyi bacardı və ölkəmiz üçün vətənpərvər milli kadrların yetişdirilməsinə başlanıldı. Məhz Ulu öndərin uzaqgörən siyasətinin nəticəsi idi ki, 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa edən Azərbaycanın yeni formalaşdırılmış silahlı qüvvələrinin əsasını C.Naxçıvanski adına Hərbi Liseyin məzunları təşkil edirdi və həmin zabitlər Birinci Qarabağ müharibəsində misilsiz şücaətləri ilə fərqlənmişdilər.

Nəhayət, Ümummilli lider Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün, 26 iyun tarixi Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edildi. Ordu quruculuğuna daim həssas münasibət göstərən dahi lider 1999-cu il fevralın 20-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması haqqında Fərman imzaladı.

2003-cü il iyunun 26-da Silahlı Qüvvələrin yaradılmasının 85-ci ildönümündə Ulu öndər Heydər Əliyev şəxsi heyətə müraciətində demişdi: "Azərbaycanın güclü ordusu bu gün də, sabah da, 10 il, 100 il bundan sonra da lazımdır. Azərbaycan ordusu, onun Silahlı Qüvvələri böyük gələcəyə baxmalıdır. Böyük gələcəyin təminatçısı isə yalnız güclü, sarsılmaz ordu ola bilər".

Dahi liderin hərb sahəsindəki siyasətini məharətlə davam etdirib onu yeni mərhələyə qaldıran Prezident İlham Əliyevin rəhbərliyi altında ötən müddət ərzində ordu quruculuğuna xüsusi diqqət yetirilmiş, Azərbaycan Silahlı Qüvvələri ən müasir silah və texnika ilə təchiz olunmuş, peşəkar milli kadrlar hazırlanmışdır.

Məhz Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin gələcəyə hesablanmış və torpaqlarımızın düşmən işğalından azad olunmasına hədəflənmiş ordu quruculuğu siyasəti 2020-ci ilin sentyabrında başlayan 44 günlük Vətən müharibəsi ilə öz məntiqi nəticəsinə çatmış, doğma Qarabağımız düşmən tapdağından azad edilmiş, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmuşdur. 44 günlük Vətən müharibəsində qazandığı qələbə ilə Azərbaycan ordusu bütün dünyaya öz şücaətini və müasir hərb elminin sirlərinə nə qədər dərindən bələd olduğunu nümayiş etdirdi. Hesab edirəm ki, bu Qələbə ordumuzun özünün 103 illiyinə bəxş etdiyi ən gözəl hədiyyədir. Bu əlamətdar gündə şəhidlərimizin xatirəsini dərin hörmətlə anır, qazilərimizə can sağlığı, uzun ömür diləyir, əsgər və zabitlərimizə şərəfli xidmət arzu edirəm.

Hörmətli həmkarlar,

Sizi 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbrik edir, cansağlığı və elmi fəaliyyətinizdə uğurlar arzulayıram.

Ramiz MEHDİYEV,
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik

AMEA-nın vitse-prezidenti Çinin aparıcı elm və təhsil ocaqlarının gənc tədqiqatçılarına mühazirə oxuyub

AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli "Çin-Azərbaycan münasibətləri" silsilə mühazirələri çərçivəsində Çinin aparıcı elm və təhsil ocaqlarının alimləri və gənc tədqiqatçılarına mühazirə oxuyub.

Tədbirdə Çin Sosial Elmlər Akademiyası Rusiya, Şərqi Avropa və Mərkəzi Asiya üzrə Tədqiqatlar İnstitutunun, Çin Sosial Elmlər Akademiyası Çin Mədəniyyəti Mərkəzinin, Çin Dövlət Şurasının İnkişaf Mərkəzinin, Şimal-Qərb Universitetinin İpək Yolu Tədqiqatlar İnstitutunun, Sincyanq Sosial Elmlər Akademiyasının, Çinqhua Universitetinin və Pekin Xarici Dillər Universitetinin alimləri iştirak ediblər.

Çin Sosial Elmlər Akademiyasının təşkilatçılığı ilə keçirilən tədbirdə akademik İsa Həbibbəyli "Qədim İpək Yolu üzərində Azərbaycan-Çin ədəbi və mədəni əlaqələri" mövzusunda məruzə ilə çıxış edib.

Məruzədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikası ilə əlaqələrə xüsusi önəm verdiyi vurğulanıb. Azərbaycanın Ermənistan üzərində tarixi qələbəsindən sonra iqtisadi, siyasi, mədəni əlaqələrimizin daha da inkişaf edəcəyinə əminlik ifadə olunub. Zəngəzur dəhlizinin açılmasından sonra regionun inkişafında yeni bir mərhələnin başlanacağı xüsusi vurğulanıb. Akademik Qədim İpək Yolu kimi bu dəhlizin önəmini qeyd edib.

Akademik İsa Həbibbəyli, həmçinin "Nizami Gəncəvi İli" çərçivəsində həyata keçirilən irimiqyaslı işlərdən söz açıb. Dahi şairin "Yeddi gözəl" poemasında Çin qızının söylədiyi "Xeyir və şər" hekayətinin təhlilinə xüsusi yer ayırıb. Klassik Azərbaycan ədəbiyyatında zəngin Çin obrazları haqqında fikirlərini çatdırıb. Eyni zamanda Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Çin mərkəzinin gördüyü işlərdən danışıb.

Akademik İsa Həbibbəyli Türkmənistanın müstəqilliyinin 30 illik yubileyinə həsr olunan tədbirdə iştirak edib

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun təşəbbüsü, Türkmənistan Elmlər Akademiyası və Türkmənistan Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Elm, texnika və innovativ texnologiyaların inkişafı" mövzusunda onlayn beynəlxalq konfransda iştirak edib.

Türkmənistanın müstəqilliyinin 30 illik yubileyinə həsr olunan tədbirdə akademik İ.Həbibbəyli "Azərbaycan-Türkmənistan əlaqələri: tarixi ənənələr və müasir dövr" mövzusunda məruzə ilə çıxış edib.

Qeyd edək ki, sözügedən konfransa Rusiya, Belarus, Qazaxıstan, Özbəkistan, İran, Yaponiya, Çin, Cənubi Koreya, Almaniya, Niderland və Polşadan akademiyaların, elmi qurumların, innovasiya mərkəzlərinin rəhbərləri qatılıb.

Tədbir çərçivəsində nanotexnologiya, kimya texnologiyası, yeni materiallar, biotexnologiya, molekulyar biologiya, ekologiya, kənd təsərrüfatı, kompüter texnologiyaları, müasir tibb texnologiyaları, innovativ iqtisadiyyat və humanitar elmlərə həsr edilmiş seksiyalar keçirilib.

Biologiya, aqrar və tibb elmləri üzrə problem şurasının 5-ci iclası keçirilib

Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Biologiya, aqrar və tibb elmləri üzrə problem şurasının onlayn formatda 5-ci iclası şuranın Tibb seksiyası ilə birgə keçirilib. İclası açan AMEA-nın vitse-prezidenti, problem şurasının sədri, akademik İradə Hüseynova gündəlikdə duran məsələlər barədə məlumat verib.

Daha sonra problem şurasının elmi katibi, biologiya elmləri doktoru, dosent Dilzarə Ağayeva dissertasiya mövzularının təsdiqi üçün 37 işin (tibb üzrə 16, biologiya üzrə 6, aqrar elmlər üzrə 15 iş) müzakirəyə çıxarıldığını bildirib. Tibb seksiyasının elmi katibi, tibb elmləri doktoru, dosent Rasim Cəfərli tibb üzrə, problem şurasının elmi katibi Dilzarə Ağayeva biologiya, problem şurasının sədr müavini, aqrar elmləri doktoru Mustafa Mustafayev isə aqrar elmlər üzrə dissertasiya mövzularını təqdim ediblər.

Akademik İradə Hüseynovanın rəhbərliyi ilə keçirilən müzakirələrdə Biologiya və Tibb Elmləri Bölməsinin Elmi şurasının sədr müavini, AMEA-nın müxbir üzvü Nuru Bayramov, AMEA-nın müxbir üzvü İlham Şahmuradov, tibb elmləri doktoru, professor Adil Allahverdiyev, tibb elmləri doktoru, professor Eldar Qasımov, biologiya elmləri doktoru Aydın Əsgərov, biologiya elmləri doktoru Yaşar Feyziyev, biologiya elmləri doktoru, professor Səyyarə İbadullayeva, biologiya elmləri doktoru, professor Elman İsgəndər, fizika elmləri doktoru, professor Rövşən Xəlilov, biologiya elmləri doktoru, dosent Könül Baxşəliyeva, aqrar elmlər üzrə fəlsəfə doktoru Cavanşir Tələi, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Mirzə Musayev və başqaları iştirak ediblər.

Tibb seksiyasının üzvləri - AR Səhiyyə Nazirliyinin Milli Oftalmologiya Mərkəzinin aparıcı elmi işçisi, tibb elmləri doktoru, professor Nizami Bağırov, Azərbaycan Tibb Universitetinin kafedra müdiri, tibb elmləri doktoru, professor Tahir Suleymanov, Azərbaycan Dövlət Həkimlərin Təkmilləşdirmə İnstitutunun kafedra müdiri, tibb elmləri doktoru, professor Valeh Mirzəzadə, Azərbaycan Tibb Universitetinin müəllimi, tibb elmləri doktoru Şəymən Qədimova, Azərbaycan Tibb Universitetinin assistenti, tibb üzrə fəlsəfə doktoru Yasmin Rüstəmova, Azərbaycan Tibb Universitetinin professoru, tibb elmləri doktoru Emma Ağayeva və başqaları çıxış edərək tibb üzrə müzakirə edilən mövzulara öz münasibətlərini bildiriblər.

Müzakirələrin gedişində qarşıya çıxan suallara aydınlıq gətirmək üçün iddiaçılar "Zoom" proqramı üzərindən iclasa qoşulublar.

Tibb üzrə müzakirəyə çıxarılmış 13, biologiya üzrə 6, aqrar elmlər üzrə 13 iş müsbət qiymətləndirilərək (bəzi mövzuların adında dəyişikliklər edilməklə) qəbul olunub, digər mövzular təkrar baxılmaq üçün geri qaytarılıb.

Azərbaycanda ilk dəfə "Riyazi biologiya, bioinformatika" ixtisası üzrə dissertasiya işi müdafiə olunub

İyunun 29-da AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.25 Birdəfəlik Dissertasiya Şurasının iclası keçirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, Dissertasiya şurasının sədri, akademik İradə Hüseynova gündəlikdə duran məsələ haqqında məlumat verib. Akademik iclasın Rəfiqə Məsməliyevanın "Riyazi biologiya, bioinformatika" ixtisasında biologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Atom yerdəyişmə parametrlərinin statistik analizi və validasiyası" mövzusunda təqdim etdiyi dissertasiyanın müdafiəsinə həsr olunduğunu və bu ixtisas üzrə Azərbaycanda ilk müdafiə olduğunu bildirib.

Alim qeyd edib ki, 12 nəfərdən təşkil olunmuş Dissertasiya şurasının 2 üzvü AMEA-nın həqiqi, 8 üzvü müxbir, 2 nəfəri biologiya üzrə fəlsəfə doktoru, 1 üzvü isə dosentdir. Şuranın 3 üzvü xaricdə fəaliyyət göstərən tanınmış alimlərdir.

İradə Hüseynova dissertasiya işinin AMEA-nın Molekulyar Biologiya və Biotexnologiya İnstitutunun Hesablama struktur biologiyası laboratoriyasının müdiri, Kembric Universitetinin professoru Qərib Mürşüdovun elmi rəhbərliyi ilə yerinə yetirildiyini diqqətə çatdırıb. Bildirib ki, Q.Mürşüdovun təşkilatçılığı ilə 2012-ci ildə yaradılmış bu laboratoriya qeyd olunan istiqamət üzrə böyük nailiyyətlərə imza atıb, laboratoriyanın ilk doktorantı Rəfiqə Məsməliyeva tərəfindən dissertasiya işi işlənib hazırlanıb.

Daha sonra Dissertasiya Şurasının elmi katibi, biologiya üzrə fəlsəfə doktoru, dosent Nurməmməd Mustafayev Rəfiqə Məsməliyevanın şəxsi işində olan məlumatlarla şura üzvlərini tanış edib.

Sonra iddiaçı Rəfiqə Məsməliyeva dissertasiya işini təqdim edərək işin giriş, 5 fəsil, yekun, nəticə, 247 adda ədəbiyyat siyahısından ibarət olduğunu, dissertasiyanın əsas məzmununun 45 şəkil və 10 cədvəl daxil olmaqla 152 səhifədə şərh edildiyini söyləyib.

İddiaçı mövzunun aktuallığı, qarşıya qoyulmuş məsələlər və onların həlli yolları haqqında məlumat verib.

Bildirib ki, dissertasiya işinin əsas məqsədi Atom Yerdəyişmə Parametrlərinin (AYP) paylanmasının statistik modelinin qurulması və bu modeldən istifadə edərək Zülalların Verilənlər Bankındakı (ZVB) quruluşların validasiyasını həyata keçirmək, eləcə də atomların nisbi dolğunluq qiymətlərinin analizini apararaq atom quruluş modelindəki lokal səhvləri aşkarlamaqdır.

Rəfiqə Məsməliyeva işin elmi yeniliyindən danışaraq qeyd edib ki, dissertasiya işində ilk dəfə olaraq atom yerdəyişmə parametrlərinin ehtimal paylanmasının Sürüşən Tərs Qamma Paylanmasına (STQP) uyğun gəldiyi göstərilib, bu parametrlərin statistik analizinə əsaslanan, makromolekulyar quruluşların atom modellərinin validasiyasını həyata keçirən yeni metod hazırlanıb. STQP-yə Ehtimalın maksimallaşdırılması alqoritmi tətbiq edilib. Həmçinin atomların və liqandların atom yerdəyişmə parametrlərinin ətraf atomlar ilə müqayisəsinə əsaslanan "Lokal analiz" adlandırılan validasiya metodu inkişaf etdirilib və zülal verilənlər bankındakı zülal quruluşlarına tətbiq olunub.

Müdafiəyə çıxarılan əsas müddəalardan bəhs edən iddiaçı diqqətə çatdırıb ki, multimodal atom yerdəyişmə parametrlərinin paylanması sürüşən tərs qamma paylanmalarının qarışığı kimi modelləşdirilə bilər. Vizual cəhətdən yaxşı alınan elektron paylanmaların hesablanması və atom modellərin qurulması üçün atom yerdəyişmə parametrlərinin mütləq qiymətinin əvəzinə paylanmasından istifadə etmək daha optimaldır. Atom yerdəyişmə parametrlərinin paylanmasının parametrlərindən istifadə etməklə hazırlanan validasiya strategiyası makromolekulyar quruluşların depositləşdirmədən əvəl və sonra yoxlanılmasında əhəmiyyətli validasiya metodudur və ayırdetmədən və atom yerdəyişmə parametrlərinin qiymətlərindən asılı olan atom yerdəyişmə parametrlərinin müqayisəli analizi atom modellərində səhvlərin tapılmasına imkan verir.

O, həmçinin lokal və qlobal analizin nəticələrini təqdim edib. İddiaçı atom/liqand və ətrafı arasında ayırdetmədən və atom yerdəyişmə parametrlərindən asılı olan nisbi elektron paylanmalarının zirvə hündürlüklərinin müqayisəli analizi əsasında atomların/liqandların validasiya metodunun hazırlandığını, ZVB-dəki quruluşların atom modellərində izortopik atom yerdəyişmə parametrlərinin statistik analizinin aparıldığını qeyd edib: "İzortopik atom yerdəyişmə parametrlərinin ehtimal paylanması STQP-yə bu parametrlərin ehtimal paylanmasının multimodal hallarında atom yerdəyişmə parametrlərinin ehtimal paylanması sürüşən tərs qamma paylanmalarının qarışığı modelinə uyğun gəlir".

Rəfiqə Məsməliyeva əlavə edib ki, ZVB-də rentgen kristalloqrafiyası metodu ilə alınmış 100 minə yaxın quruluşdan təxminən 10%-nin atom yerdəyişmə parametrlərinin paylanmasının multimodallıq nümayiş etdirdiyi müəyyən olunub. İddiaçının sözlərinə görə, ZVB-dəki bütün quruluşların atom yerdəyişmə parametrlərinin STQP-nin parametrlərinə əsasən hazırlanmış alfa-beta kontur qrafiki validasiya üçün proksi kimi istifadə edilir. ToBvalid metodu atom yerdəyişmə parametrləri paylanmasının statistik analizi və validasiyasını, atomların və liqandların lokal validasiyasını həyata keçirən proqram təminatı və Python kitabxanası şəklində hazırlanıb və "Mozilla Public License version 2.0" lisenziyası ilə GitHub və PyPi plaformalarına yerləşdirilərək tədqiqatçıların istifadəsinə verilib.

Sonra Rəfiqə Məsməliyeva dissertasiya işi üzrə nəşr olunmuş elmi əsərlərin siyahısını diqqətə çatdırıb. Dissertasiyanın nəticələri üzrə 7 məqalə və 4 tezis olmaqla, 11 əsərin çap edildiyini bildirib.

Rəsmi opponentlər - AMEA-nın müxbir üzvü Oktay Qasımov, biologiya elmləri doktorları, professorlar İradə Əliyeva və Elimxan Cəfərov öz çıxışlarında tədqiqat işinin riyazi biologiya və bioinformatika sahəsində aparılmış tamamlanmış, dolğun, əhəmiyyətli iş olduğunu bildiriblər. Əldə olunan elmi yeniliklərin orijinal olduğunu, kompleks məsələlərin uğurla həll edildiyini, göstərilən iradların əsasən tövsiyə xarakteri daşıdığını vurğulayıblar. Opponentlər dissertasiya işinin AR Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) fəlsəfə doktoru dissertasiyalarına qoyulan tələblərə tam cavab verdiyini, iddiaçının "Riyazi biologiya, bioinformatika" ixtisası üzrə biologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini almağa layiq olduğunu bildiriblər, eləcə də irad və tövsiyələrini nəzərə çatdırıblar.

Daha sonra iddiaçı iradları cavablandırıb.

Müzakirələrdə iştirak edən Bakı Dövlət Universitetinin Riyazi-fizika tənlikləri kafedrasının müdiri, akademik Yusif Məmmədov, Akdeniz Universitetinin professoru, AMEA-nın müxbir üzvü Tərlan Məmmədov, İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Ramiz Alıquliyev, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kafedra müdiri, AMEA-nın müxbir üzvü Xəlil Qasımov, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun laboratoriya rəhbəri, AMEA-nın müxbir üzvü İlham Şahmuradov və Bakı Mühəndislik Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, texnika üzrə fəlsəfə doktoru, dosent Manafəddin Məmmədov dissertasiya işinə dair sual, təklif və tövsiyələrini diqqətə çatdırıblar. Çıxış edənlər iddiaçının yerinə yetirdiyi tədqiqat işinin aktual mövzuya həsr edildiyini, elmi-praktiki baxımdan maraq doğurduğunu və elmi yeniliyə malik olduğunu bildiriblər.

Qeyd olunub ki, riyazi biologiya və bioinformatika sahəsində mühüm yenilik olan bu dissertasiya işində həm fundamental, həm də tətbiqi əhəmiyyətə malik AYP-nin statistik paylanması qurulub. Rəfiqə Məsməliyevanın müəllifi olduğu elmi məqalələrin nüfuzlu beynəlxalq jurnallarda çap olunması dissertasiya işinin yüksək səviyyədə yerinə yetirildiyini bir daha sübut edir.

Sonra çıxış edən akademik İradə Hüseynova, dissertasiya işinin elmi rəhbəri, professor Qərib Mürşüdov, akademik Validə Əlizadə, AMEA-nın müxbir üzvləri İlham Şahmuradov, Novruz Quliyev, Ramiz Alıquliyev, Xəlil Qasımov və Ukrayna Milli Elmlər Akademiyasının müxbir üzvü Viktor Anatolyeviç Kunax iddiaçının yerinə yetirdiyi tədqiqat işinin tamamlanmış iş olduğunu və elmi yeniliyə malik olduğunu bildiriblər. Onlar dissertasiya işində elmtutumlu araşdırmaların aparıldığını, beynəlxalq təcrübənin öyrənildiyini, mühüm elmi nəticələrin əldə olunduğunu, problemin həlli üçün yeni yanaşmaların ortaya qoyulduğunu nəzərə çatdırıblar. Çıxış edənlər gərgin əməyin nəticəsi olan tədqiqat işini yüksək qiymətləndirərək, onun AAK-ın "Riyazi biologiya, bioinformatika" ixtisası üzrə fəlsəfə doktorluğu dissertasiyalarının tələblərinə tam cavab verdiyini vurğulayıblar.

İddiaçının yekun sözləri dinlənildikdən sonra AAK-ın rəsmi saytında "Şəxsi kabinet"ə daxil olmaqla gizli elektron səsvermə keçirilib. Səsvermənin nəticələrinə əsasən, Rəfiqə Məsməliyevaya biologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsinin verilməsi ilə əlaqədar AR Prezidenti yanında Ali Attestasiya Komissiyasının qarşısında vəsatət qaldırılması barədə qərar qəbul edilib.

AMEA-nın Ümumi yığıncağının qərarının icrasından irəli gələn vəzifələr haqqında tədbir keçirilib

AMEA Rəyasət Heyəti aparatının rəhbəri, dosent Seyfəl Həsənovun rəhbərliyi ilə AMEA-nın Ümumi yığıncağının 27 may 2021-ci il tarixli 1/1 nömrəli qərarının icrasından irəli gələn vəzifələr və qarşıda duran məsələlər barədə iclas keçirilib.

İclasda AMEA Rəyasət Heyəti aparatının struktur bölmələrinin əməkdaşları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan aparat rəhbəri Seyfəl Həsənov qərarın icrasından irəli gələn məsələlər haqqında tədbir iştirakçılarını məlumatlandırıb, tövsiyələrini verib.

Sonra geniş təqdimatla çıxış etmək üçün söz AMEA Rəyasət Heyəti aparatının Elmi-təşkilat idarəsinin rəisi, dosent

Rüstəm Rüstəmova verilib. İdarə rəisi elm və təhsilin uğurlu inteqrasiyasına nail olma yolları, elmi mövzuların layihələrin tərtibatı formatında təqdim olunmasının vacibliyi, müasir texnologiyadan daha geniş miqyasda istifadə edərək qərar vermədə daha yüksək dəqiqliklərə nail olmaq, habelə xaricdə yaşayan azərbaycanlı elm adamlarının elmin inkişafına verə biləcəyi töhfəni gücləndirmək və beynəlxalq layihələrə daha miqyaslı müdaxilə məqsədilə məqsədyönlü fəaliyyətin aparılmasının vacibliyi haqqında iclas iştirakçılarına ətraflı məlumat verib.

Sonda idarə rəisi tərəfindən iclas iştirakçılarının çoxsaylı sualları cavablandırılıb.

Süni intellektin tətbiqi ilə ağciyər xərçəngini erkən aşkarlamağa imkan verən tədqiqatlar aparılır

AMEA-nın Biofizika İnstitutunun AR Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi ilə birgə insan ağ ciyər karsinoması üzrə tədqiqatları uğurla davam edir.

Bu günlərdə birgə tədqiqatların nəticəsi olaraq Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyev, Biofizika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Oktay Qasımov, Biofizika İnstitutunun elmi işçisi Arzu Aydəmirova, Milli Onkologiya Mərkəzi və Biofizika İnstitutunun birgə laboratoriyasının rəhbəri Leylaxanım Məlikovanın həmmüəllifliyi ilə "Süni intellekti qan plazmasının FÇİQ spektrlərinə tətbiq etməklə insan ağciyər xərçənginin klassifikasiyası" adlı məqaləsi impakt faktoru 3.898 (Clarivate Analytics, 2020) olan "Applied and Computational Mathematics" jurnalında çap edilib (Appl. Comput. Math, 2021, v.20, 277-289).

Sözügedən tədqiqat işi AMEA Rəyasət Heyətinin, Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin, o cümlədən Biologiya və Tibb Elmləri Bölməsinin iclaslarında geniş müzakirə edilib və elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib. Məqalədə göstərilib ki, süni intellekti sağlam və ağciyər karsinoması xəstələrinin qan plazmalarının FÇİQ spektrlər toplusunun analizinə tətbiqi ilə yaradılan model sağlam və xəstə nümunələri 80-90% dəqiqliklə klassifikasiya etməyə imkan verir.

Hazırda bu iş Biofizika İnstitutu və Milli Onkologiya Mərkəzinin birgə səyi ilə daha da inkişaf etdirilir. Məqsəd maşın öyrənməsini genişləndirməklə xərçəngin klassifikasiyasını daha da yaxşılaşdırmaq və qeyri-invaziv skrininq metodu kimi ağciyər xəstələrinin erkən aşkar edilməsinə tətbiq etməkdir.

Atatürk Universiteti birgə əməkdaşlıq perspektivləri müzakirə edilib

AMEA-nın akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun Türkiyənin Atatürk Universiteti ilə həyata keçirdiyi müştərək elmi tədqiqatların nəticələrinə həsr olunan beynəlxalq elmi seminar keçirilib.

Tədbiri giriş sözü ilə açan institutun baş direktoru, akademik Vaqif Fərzəliyev bildirib ki, 2015-ci ildən Atatürk Universiteti ilə birgə əməkdaşlıq edilir.

Akademik müştərək beynəlxalq tədqiqat qrupunun Türkiyədən olan rəhbəri Dr., professor İlhami Gülçin haqqında qısa məlumat verib, onun elmi araşdırmalarının tibbin ən geniş yayılmış patoloji proseslərə qarşı enzim-izoenzimlərin antioksidant, inhibitor fəallıqlarının tədqiqini əhatə etdiyini bildirib.

Dr. İlhami Gülçin "Bəzi qlobal xəstəliklərlə əlaqəli metabolik fermentləri inhibə edən yeni nəsil inhibitorların müqayisəli təsiri" mövzusunda məruzə edib. O, çıxışında canlı orqanizmlərdə hüceyrə səviyyəsində enzim-izoenzim fəaliyyətinin pozulması nəticəsində yaranan bədxassəli şişlər, alzeymer, qlaukoma, şəkərli diabet, hipertoniya kimi çox yayılan qlobal xəstəliklərin yaratdığı patoloji halların tamam dayandırılması və zəiflədilməsi istiqamətində Aşqarlar Kimyası İnstitutu və digər elmi mərkəzlərdə sintez olunan inhibitorların antioksidant, metabolizm və digər bioloji fəallığının tədqiqi istiqamətində yerinə yetirilən tədqiqatların əsas nəticələri haqqında məlumat verib.

Sonda davam etdirilən elmi araşdırmaların perspektiv imkanları və bu istiqamətdə birgə əlaqələrin genişləndirilməsi ilə bağlı müzakirələr aparılıb.

ELM

MEK-in "Qarabağ müharibəsi qəhrəmanları" fondunun açılışı olub

İyunun 24-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) "Qarabağ müharibəsi qəhrəmanları" fondunun rəsmi açılış mərasimi baş tutub.

Öncə MEK-in rəhbərliyi və kollektivi İkinci Fəxri xiyabanı ziyarət ediblər. Şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə gül dəstələri qoyulub.

Rəsmi açılışda AMEA-nın institutlarının rəhbərləri, elm xadimləri, millət vəkilləri, Türkiyənin Azərbaycandakı səfiri, Türkəyinin Azərbaycandakı hərbi ataşesi, Qazaxıstanın Azərbaycandakı səfirliyinin I katibi, Qarabağ müharibəsi iştirakçıları, qazilər, Milli Qəhrəmanlar və şəhid ailələrinin üzvləri iştirak ediblər.

AMEA MEK-in baş direktoru, professor Məmməd Əliyev Azərbaycan kitabxana sistemində bir ilk olan və cəmiyyətimiz üçün mühüm əhəmiyyət kəsb edən "Qarabağ müharibəsi qəhrəmanları" fondunun açılışının Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 103-cü ildönümü ərəfəsinə təsadüf etdiyini vurğulayıb. Baş direktor qeyd edib ki, fonda rəhbərlik tarixi qələbəmizdə mühüm payı olan "Zəfər" ordenli şəhidimiz, Azərbaycan ordusunun polkovniki Babək Səmidlinin bacısı, MEK-in əməkdaşı Röksanə Səfərzadəyə həvalə edilib.

"44 günlük Vətən müharibəsi tariximizin şanlı səhifəsidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan ordusunun qazandığı qələbə xalqımızın yenilməzliyini bütün dünyaya nümayiş etdirdi. Torpaqlarımızın erməni vandallarından azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması uğrunda canlarını fəda edən şəhidlərimizin, qazilərimizin, müharibədə iştirak edən vətənpərvər Azərbaycan övladlarının borcu ödənilməzdir. Onlar bizim qürurumuz, fəxrimiz, güvənc yerimiz, millətimizin başucalığıdır. İkinci Qarabağ müharibəsi nəticəsində əldə olunmuş möhtəşəm Qələbəmizi və 3000-ə yaxın şəhidimizin ruhu qarşısında mənəvi borcumuzu yerinə yetirmək üçün MEK yeni təşəbbüsə imza atıb. "Qarabağ müharibəsi qəhrəmanları" fondu yaradılıb. Çoxsaylı alimlərin, mütəxəssislərin, ziyalıların çalışdığı ən böyük elm məbədi Azərbaycan Milli Elmlər Akademiyasının bir hissəsi olan MEK-də belə fondun olması əhəmiyyətlidir. Çünki ziyalı öz qəhrəmanını daha yaxından tanıyanda cəmiyyətin digər hissələrinə də təbliğ edir, öyrədir", - deyə baş direktor bildirib.

Professor Məmməd Əliyev, həmçinin Azərbaycanda bu mövzu ilə bağlı mətbuatda dərc ediləcək məqalələr, elmi nəşrlər, müdafiə olunacaq dissertasiyalar ilə fondun daha da zənginləşəcəyindən əminliyini ifadə edib.

Sonra AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova çıxış edərək MEK-də 44 günlük Vətən müharibəsində qazanılan qələbəni əbədiləşdirmək üçün yaradılan "Qarabağ müharibəsi qəhrəmanları" fondunun böyük təşəbbüs olduğunu bildirib. Akademik İradə Hüseynova Vətən müharibəsində tarix yazan Milli Qəhrəmanlar, şəhid, qazi və müharibə iştirakçılarının qəhrəmanlığından söz açaraq, onlar haqqında yazılan kitabların kitabxanada əbədi qorunmasının və gələcək nəsillərə ötürülməsinin vacib olduğunu qeyd edib.

Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı isə çıxışında vurğulayıb ki, Türkiyə və Azərbaycan arasında inanılmaz bir qardaşlıq var və Qarabağ zəfərində bu qardaşlıq daha da önə çıxdı. "Türkiyə həm siyasi, həm mənəvi cəhətdən hər zaman Azərbaycanın yanındadır. Bu dəstək iki ölkə arasında olan qardaşlıq mövqeyinin təzahürüdür. 3000-ə yaxın şəhidi hörmətlə anırıq, qazilərə can sağlığı arzulayırıq. Zəfəriniz şanlı olsun, mübarək olsun!", - deyə səfir vurğulayıb.

Tədbirdə 2020-ci il noyabr ayının 23-də Suqovuşan ərazisində minaya düşərək şəhid olan polkovnik Babək Səmidlinin qardaşı, I Qarabağ müharibəsi veteranı, polkovnik-leytenant Müşviq Səmidli çıxış edib. M.Səmidli çıxışında qardaşının uşaqlıqdan vətənpərvər böyüdüyünü bildirib, Babək Səmidlinin Vətən müharibəsində iştirakından, ordumuzun möhtəşəm qələbəsindən də geniş danışıb.

44 gün davam edən Vətən müharibəsində Silahlı Qüvvələrimizin şəxsi heyətinin tərkibində döyüş əməliyyatlarında fəal iştirak etmiş və hərbi qulluq vəzifələrini şərəflə yerinə yetirmiş qazi Ceyhun Məmmədov çıxış edərək keçdiyi döyüş yolundan, orduda olan böyük ruh yüksəkliyindən, vətənpərvərlik hisslərindən, Ali Baş Komandana sonsuz inamdan danışıb, Vətən müharibəsində sağlamlığını qismən itirən döyüşçülərə göstərilən dövlət qayğısından razılığını bildirib.

Açılış tədbirində "Qarabağ müharibəsi qəhrəmanları" fondunun rəhbəri Röksanə Səfərzadə çıxışında qeyd edib ki, dövlətin və ictimaiyyətin dəstəyi, AMEA rəhbərliyinin yaxından köməkliyi və MEK-in təşəbbüsü ilə yaradılan fondun zənginləşdirilməsi istiqamətində müharibə iştirakçıları və ailələri ilə əlaqələr qurulub. Birinci və İkinci Qarabağ müharibəsinin şəhidləri, qaziləri, iştirakçıları haqqında məlumat bazası yaradılıb və bu proses hələ də davam edir. Bundan əlavə, fondda olan nəşrlər və ədəbiyyatlar e- kataloqa daxil edilərək, rəqəmsallaşdırılıb. Elektron bazada Azərbaycan və xarici dillərdə informasiya resursları, biblioqrafik məlumatlar, Birinci və İkinci Qarabağ müharibələrinə dair aparılan tədqiqatlar yer alır.

Tədbirdə çıxış edənlər millət vəkili Tamam Cəfərova, millət vəkili, tarixçi, professor Anar İsgəndərov, Lənkəran Dövlət Universitetinin prorektoru, dosent, şəhid Vüsal Kazımovun atası Kamran Kazımov, Bakı Slavyan Universitetinin prorektoru, dosent Xanım Sultanova, Milli Qəhrəman, şəhid İlqar Mirzəyevin oğlu, "Yaşat" fondunun əməkdaşı Elvin Mirzəyev, Xocalı sakini Mürvət Məmmədov Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış oğullarımızın, qazilərimizin və digər hərbi qulluqçularımızın göstərdikləri qəhrəmanlıqları barədə fəxr və qürurla danışaraq onların adlarını əbədiləşdirmək istiqamətində MEK-in gördüyü işləri yüksək qiymətləndiriblər.

Tədbir zamanı Beynəlxalq Muğam Mərkəzinin solisti Almaxanım Əhmədli tərəfindən "Xudayar təsnifi" və gənc xanəndə Anar Məmmədovun ifasında "Qarabağ" mahnısı təqdim olunub.

Həmçinin MEK tərəfindən 26 İyun - Silahlı Qüvvələr Günü və "Qarabağ müharibəsi qəhrəmanları" fondunun açılışına həsr olunmuş videoçarx nümayiş etdirilib.

Sonra qonaqlar fondla daha yaxından tanış olublar. Fondda Azərbaycan xalqının böyük oğlu, ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Qarabağ bölgəsində müxtəlif dövrlərdə çəkilmiş şəkilləri, "Qarabağ Azərbaycandır!" guşəsində 50-ə yaxın müharibə iştirakçısının fotoları, onların şəxsi kitabxanalarından ailələri tərəfindən fonda hədiyyə olunan kitablardan ibarət kolleksiya, Azərbaycan Respublikasının xəritəsi üzərində 3000-ə yaxın şəhid adlarının əks olunduğu "Zəfər memarları" guşəsi, Birinci və İkinci Qarabağ müharibəsi, Aprel və Tovuz döyüşləri zamanı 500-dən artıq şəhid, qazi və müharibə iştirakçılarının həyatı və fəaliyyət yolunu əks etdirən məlumatlar, şəxsi sənədlər, 1000-dən artıq kitab, qəzet, jurnal, məqalələr, sənədli və bədii filmlər toplanaraq oxucuların istifadəsinə verilib. Fondda, həmçinin oxucuların rahatlığı və tədbirlərin təşkili üçün də lazımi şərait yaradılıb.

YUBİLEY

"Nərə balıqlarından alınan maddədən hazırlanan dərmanlar ayıqlıq tələb edən peşə sahiblərinin iş prosesinə mühüm töhfə verə bilər"

"...Nərə balıqlarının izinə düşdüm və onlar mənim gələcək müqəddəratımı həll etdilər..."



Saysız-hesabsız elmi əsərlərin, monoqrafiya, məqalə və tezislərin müəllifi, fəlsəfə və elmlər doktorları yetişdirmiş, həmçinin elmi-təşkilati və ictimai fəaliyyətlə məşğul olmuş, ölkəmizdə balıqçılıq təsərrüfatları üçün yazdığı elmi əsərlər və tövsiyələrlə biologiya elminin inkişafına əvəzsiz töhfələr vermiş alim, Fiziologiya İnstitutunun Dissertasiya şurasının sədr müavini, Beynin öyrənilməsi üzrə beynəlxalq təşkilatın (İBRO), eləcə də Xəzər dənizinin problemləri üzrə Elmi şuranın üzvü, AMEA-nın müxbir üzvü Rafiq Yunis-Əli oğlu Qasımov bu il 90 illik yubileyini qeyd edir. Bu münasibətlə "Elm" qəzeti olaraq peşəkar və veteran alimə yubileyi ərəfəsində öz suallarımızı ünvanladıq.

- Elmi fəaliyyət istiqamətinizi əsasən erkən ontogenezdə nərə balıqları davranışının müqayisəli öyrənilməsi və onların zavod şəraitində çoxaldılaraq böyüdülməsi üzərində aparmısınız. Necə oldu ki, elmi fəaliyyətinizi məhz bu istiqamətdə davam etdirdiniz?

- O vaxtlar fiziologiya üzrə aspiranturaya qəbul olduğumda (1953) Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət Heyətinin üzvü, məşhur akademik Aleksandr Derjavin mənə aspiranturanı Leninqradda (Sankt-Peterburq) oxumağı və balıq fiziologiyası üzrə ixtisaslaşmağı təklif etdi. Çünki bu sahə üzrə ölkəmizdə mütəxəssis yox idi. Həm də o vaxtlar Mingəçevir Su Anbarı yenicə fəaliyyətə başlamışdı və bu da balıqların kürü tökməsinin yolunu kəsmişdi. Buna görə də onların süni yolla çoxaldılması və bir çox elmi-tədqiqat işlərinin aparılması lazım idi. Və mən bu istiqamət üzrə ixtisaslaşmağı qərara alaraq məşhur genetik M.E.Lobaşovun sınaqlarından keçərək, həm də elmi rəhbərim, mərhum akademik Abdulla Qarayevin tövsiyə və mənəvi dəstəyi ilə Sankt-Peterburqda aspiranturaya qəbul olub oranı müvəffəqiyyətlə bitirdim. Lakin aspiranturada oxuduğum müddətdə hər il Azərbaycana, Neftçalaya gəlir, Balıqartırma Zavodundan balıq körpələrini götürüb yenidən Leninqrada qayıdır, tədqiqat aparırdım. Beləliklə, mən nərə balıqlarının izinə düşdüm və onlar mənim gələcək müqəddəratımı həll etdilər...

- XXI əsr yüksək texnologiyalar əsri olduğundan elmin digər sahələrindəki kimi, fiziologiyada da ölkəmizdə bu sahənin öyrənilməsi və tədqiqi üzrə innovativ texnoloji avadanlıqlardan geniş istifadə edilir. İnsan və heyvan fiziologiyasının öyrənilməsində ölkəmizdəki texnoloji avadanlıqların işəyararlığı bir peşəkar alim kimi sizi qane edirmi?

- Bu gün nəinki bütün dünyada, eləcə də AMEA-da alimi ən çox qiymətli edən onun sanballı jurnallarda çap olunmuş məqalələrinin prioritetliyidir. Və təbii ki, prioritet jurnallarda çap olunmaq üçün tədqiqatları yüksək səviyyəli, ən müasir texnologiyalara cavab verən cihazlar üzərində aparmaq lazımdır. Bu gün müasir cihazları işlətməyi bacaran savadlı mütəxəssislərə ehtiyacımız var. Çünki hər həssas cihazın üç aydan bir texniki yoxlamadan keçməsi zəruridir. Bildiyiniz kimi, fizioloji funksiyalar o qədər dəqiqlik tələb edir ki, onu düzgün ölçmək və təyin etmək üçün müasir standartlara cavab verən cihazlarla işləmək çox vacibdir. Gəlin buna bir neçə əyani misal çəkim, ana südü tərkibindəki əvəzediciləri, immun maddələri tapmaq qeyri-mümkündür. Onu müəyyən edən cihaz da yoxdur. Və yaxud nərə balıqları gecələr yatmır. Nəyin hesabına onlar belə aktivdirlər? Bütün bu incəlikləri dərindən öyrənə bilsək, təyyarəçilər, sürücülər, gecə növbətçiləri və digər ayıqlıq tələb edən peşə sahiblərinə nərə balıqlarından alınan maddədən hazırlanan dərmanlar verərək iş prosesini daha da aktiv və yararlı etmiş olardıq. Ona görə də müasir innovativ texnologiyalar elmə olduqca lazımdır və onların da istifadəsinin öyrənilməsi mütləqdir.

- Rafiq müəllim, daim gənclərlə işləyirsiniz. Onların elm yolunda atdıqları addımlarda örnək və dəstək olmuş, peşəkar elmi fəaliyyətinizlə onlara böyük bir məktəb yaratmısınız. Bu gün Rafiq Qasımov irsini davam etdirən gənc alimlərimizə tövsiyələriniz nədən ibarətdir?

- Tövsiyələrim əlbəttə ki, var. Birinci tövsiyəm odur ki, işi əvvəldən axıradək aparıb tətbiq etsinlər. Bəzən gənclər başladıqları bir elmi işdən digərinə keçmək fikrinə düşürlər. Və belə olduqda elmdə fundamental iş apara bilmirlər. Sizə öz təcrübəmdən misal gətirim. 1970-ci illərdə SSRİ Elmlər Akademiyasından bizim Fiziologiya İnstitutuna müraciət etdilər ki, biz balıqların mayasını (spermasını) donduraq və onu bir şəhərdən başqa şəhərə aparaq. Çünki balıqların bir növü Uzaq Şərqdə, digər növü isə Ukraynada yaşayırdı və bunları cütləşdirmək lazım olduğundan və ana balıqları bir şəhərdən digərinə aparmaq mümkün olmadığından (buna bir çox amillər mane olurdu) bu işi bizə həvalə etmişdilər. Beləliklə, AMEA-nın Fiziologiya İnstitutu və Biofizika laboratoriyasının alimləri ilə birgə bu çətin işə başladım. İşimizdə gözəl nəticələr əldə etdik. Lakin onu axıradək sonlandıra və tətbiq edə bilmədik. Və yaponiyalı alimlər bizim əldə etdiyimiz nəticələrlə tanış olub onları bir az da təkmilləşdirib patentini aldılar. Bizim də bütün əməklərimiz hədər getdi. Ona görə də işi sonlandırıb tətbiq etməyi bacarmalısan. Tətbiq zamanı da bir çox nöqsanlar ortaya çıxır və bu nöqsanları da tədqiqatı aparan mütəxəssisdən yaxşı heç kim bilmir və onları tez bir zamanda aradan qaldırdıqda, həmin tətbiqlərin çox uğurlu nəticəsini əldə etmiş olursan. Bugünədək 40-dan çox fəlsəfə və elmlər doktorları hazırlamışam və onlara daim tövsiyə etmişəm ki, elmə həvəs və sevginiz yoxdursa, elmi fəaliyyətlə məşğul olmağınızın heç bir faydası yoxdur. Ona görə də öz peşənizə dərindən yiyələnməli, işinizin ustası,bilicisi olmalısınız!

- Gənclərlə yanaşı, orta məktəb şagirdlərinə də daim diqqət və qayğı göstərir, onların maariflənməsi yolunda görülən işlərdə (buna "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası bariz nümunədir) yaxından iştirak edir, köməyinizi əsirgəmirsiniz.

- Mən Azərbaycana 1960-cı ildə gəlmişəm. 5 il Neftçalada işləmiş, orada doktorluq işlərimi tamamlamışam. Neftçalada olarkən özüm orta məktəb direktorlarına müraciət edirdim ki, şagirdlərə maraqlı mövzular oxumağıma icazə versinlər. Təsadüfən AMEA-nın Rəyasət Heyətində məndən nərə balıqları ilə məşğul olmağımı istəməsəydilər bu sahə üzrə alim olmayacaqdım. Ona görə də alim həmişə şagirdlərlə işləməlidir. Öyrətdikləri bircə şagirdin beyninə həkk olunsa, deməli, bu, elmdir və əgər həmin şagird bu yolla gedəcəksə, o alim xoşbəxtdir! Elə ona görə də mən çox xoşbəxtəm! Bakıda olanda 60, 160, 132 saylı orta məktəblərin biologiya müəllimləri ilə birgə ildə bir-iki dəfə məruzələr aparır, olimpiadalar keçirirdik. Həmin o şagirdlərin əksəriyyəti sonralar savadlı bioloqlar oldular. Bir çoxu isə nəinki Azərbaycanda, hətta xarici ölkələrdə alim kimi fəaliyyət göstərirlər. Hesab edirəm ki, xoşbəxt insan böyük bir sevgiylə evdən çıxıb işinə və işdən çıxıb evinə tələsən, hər iki yerdə onu daim sevgi ilə gözləyənlərin olduğunu bilən şəxsdir.

Müsahibəni apardı:
Alidə ZEYNALOVA,
AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin aparıcı mütəxəssisi

REGİON

Naxçıvan Bölməsinin Rəyasət Heyətinin növbəti iclası keçirilib

AMEA-nın Naxçıvan Bölməsi Rəyasət Heyətinin növbəti iclasında bölmənin sədri, akademik İsmayıl Hacıyev əvvəlcə iclas iştirakçılarını gündəlikdəki məsələlərlə tanış edib.

Bölmənin Təbii Ehtiyatlar İnstitutunun Mineral xammalın kimyası və texnologiyası laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Qorxmaz Hüseynov "Bərəmum bioloji fəal məhsuldur" mövzusunda elmi məruzə edib. Məruzədə ekoloji təmiz qida məhsullarından istifadənin insan sağlamlığında önəmi vurğulanıb. Təbii məhsul istehsal edən sahələrin inkişafının aktuallığını qeyd edən alim bildirib ki, hazırda Naxçıvan Muxtar Respublikası ərazisində 100 minə yaxın arı ailəsi mövcuddur. Naxçıvanın münbit təbii-coğrafi iqlim şəraiti və zəngin bitki örtüyü arıçılığın normal inkişafına şərait yaratmaqla bərabər, istehsal olunan arı məhsullarının tərkib və keyfiyyətinə öz müsbət təsirini göstərir.

Tədqiqatçı bitki və heyvan mənşəli məhsul olan bərəmumun hazırlanması, onun zəngin kimyəvi tərkibi, arı ailəsinin əlverişsiz mühit şəraiti və bəzi zərərvericilərdən qorunmasındakı rolundan bəhs edib. Qeyd olunub ki, bərəmum tərkibi insan bədəninin bütün sistemlərinin normal işləməsi və daxili orqanları üçün zəruri olan 800-dən çox maddə ilə təmsil olunan bənzərsiz təbii məhsuldur. Bərəmum qiymətli dərman xüsusiyyətlərinə malik bioloji aktiv maddələr kompleksi olub, müasir tibbdə bir çox xəstəliklərin müalicəsində təsirli vasitə kimi tətbiq edilir. Bu möcüzəvi məhsul bir çox antibiotikdən üstündür, antibakterial və antivirus xassələrə malikdir. Zəhərlərin, ağır metalların duzlarının bədəndən xaric olunmasını təmin edir, bədənin əlverişsiz ətraf mühit amillərinə qarşı müqavimətini artırır. Bərəmum neyrodejenerativ, ginekoloji, dermatoloji xəstəliklərin, mədə, bağırsaq, boğaz ağrısı, prostat vəzinin müalicəsində, yara və yanıqların yaxşılaşdırılmasında əvəzedilməz dərmandır. Müəyyən edilib ki, bərəmum ekstraktlarından istifadə edən şəkər xəstələri özlərini daha yaxşı hiss edir və müəyyən vaxtdan sonra dərman qəbul etməyə ehtiyac qalmır. Bərəmum ekstraktları orqanizmi zəruri olan maddələrlə zənginləşdirir və orqanların normal həyat fəaliyyətini təmin edir. Bu təbii məhsul qida əlavəsi və kosmetik vasitə kimi istifadə üçün perspektivlidir.

Məruzənin sonunda mövzu ilə bağlı müzakirə aparılıb, sual doğuran məqamlara aydınlıq gətirilib.

Daha sonra akademik İsmayıl Hacıyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 1 iyun 2021-ci il tarixli Sərəncamı ilə təsdiq olunan Tədbirlər planından irəli gələn vəzifələrin icra vəziyyəti haqqında məlumat verib.

İclasda AMEA Naxçıvan Bölməsi Aparatının şöbə müdirləri dosent Orxan Bağırov, Filurə Sadıqova və mütəxəssis Gülvira Mustafayeva gündəlikdəki məsələlərlə bağlı çıxış ediblər. Çıxış edənlər Naxçıvan Bölməsinin 2021-ci ilin birinci yarımilinə aid elmi və elmi təşkilati fəaliyyəti, bölmədəki vakant vəzifələrin tutulması üçün keçirilən test imtahanında uğur qazanmış namizədlər və Dövlət İmtahan Mərkəzinin 2021-2022-ci tədris ili üçün doktorantura və dissertanturaya xarici dil üzrə qəbul imtahanında iştirak barədə məlumatı diqqətə çatdırıblar. Yığıncaq müddətində gündəlikdə əksini tapan digər məsələlər Rəyasət Heyətinin gündəliyinə çıxarılaraq müvafiq qərarlar qəbul olunub.

Gəncə Bölməsində müxtəlif təyinatlı işlənmiş sürtkü yağlarının yenidən bərpası ilə bağlı tədqiqatlar aparılıb

Müasir tələblərə uyğun müxtəlif təyinatlı sürtkü yağlarının ekoloji təmizliyinin bərpa edilməsi ilə məişət texnologiyasında tətbiqi mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir.

Belə ki, kənd təsərrüfatının müxtəlif sahələrində istifadə edilən müxtəlif növ maşın və mexanizmlərin sürətli inkişafı, eyni zamanda mürəkkəbliyi artmaqda davam edir. Bununla əlaqədar olaraq sürtkü yağlarına və onların keyfiyyətinə olan tələblər artır, onların istismar müddətinin artırılması aktual məsələyə çevrilir. Müxtəlif təyinatlı, xüsusən motor yağlarının tərkibində istifadə edilən çoxfunksiyalı detergent-dispersedici aşqarların - alkilfenolların formaldehid və bir sıra aminlərlə qarşılıqlı təsiri nəticəsində alınan kondensləşmə məhsullarının kalsium duzları və onların karbonatlaşma birləşmələrinin tədqiqi zərurəti yaranıb.

Bu istiqamətdə AMEA Gəncə Bölməsinin Ekologiya və Təbii Ehtiyatlar İnstitutunda "Müxtəlif təyinatlı işlənmiş sürtkü yağlarının yenidən bərpasının tədqiqi" mövzusunda elmi-tədqiqat işi yerinə yetirilir. İnstitutun Naftalan nefti və səthi aktiv maddələr laboratoriyasında aparılan tədqiqatlar müasir maşın və mexanizmlərdə istismar edilən sürtkü yağlarının regenerasiya üsulları ilə təmizlənməsi və ilkin göstəricilərlə müqayisəli tətbiqini nəzərdə tutur.

Tədqiqat işində müxtəlif biosidlərin fərqli tərkib və quruluşa, funksional xassələrə malik olan sürtkü yağlarına təsiri tədqiq edilərək qanunauyğunluqlar müəyyənləşdirilib və tətbiq üçün tövsiyələr hazırlanıb. Sürtkü yağlarının keyfiyyətini və istismar xassələrini yüksəldən aşqarların tədqiqi yağların uzun müddət saxlanılmasına və bununla da iqtisadi səmərəliyinin artırılmasına səbəb olur.

Qeyd edək ki, bu istiqamətdə aparılan elmi-tədqiqat işi ilə əlaqədar müəlliflər - Gəncə Bölməsinin Ekologiya və Təbii Ehtiyatlar İnstitutunun Naftalan nefti və səthi aktiv maddələr laboratoriyasının əməkdaşları - H.Cavadova və İ.Cəfərova tərəfindən "Sürtkü yağlarının mikrobioloji zədələnməsi" adlı monoqrafiya hazırlanıb. Monoqrafiyanın əsas məqsədi neft məhsullarının müxtəlif təsirlərə məruz qalmaqla ilkin göstəricilərinin bakteriyalarına, xüsusən mikrob və göbələklər vasitəsilə dəyişdirilməsinə qarşı aparılan tədbirlərə oxucuların diqqətini cəlb etmək, ictimaiyyəti bu problemin həllinə yönəltmək və onunla mübarizə yollarının iqtisadi, ekoloji və elmi-praktiki əhəmiyyətini göstərməkdir.

Vətən müharibəsində şücaət göstərmiş AMEA əməkdaşları təltif olunublar

Yüksək Texnologiyalar Parkı

Prezident İlham Əliyev iyunun 24-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilib.

Qubadlının işğaldan azad olunması zamanı vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş hərbi qulluqçularımız sırasında AMEA Yüksək Texnologiyalar Parkının (YT Park) Ərazi idarəetmə şöbəsinin əməkdaşı Razi Nuriyev də var.

Qeyd edək ki, ölkə Prezidentinin 24 iyun tarixli digər Sərəncamı ilə YT Parkın baş mühəndisi Rahim Heydərovun Ermənistan Silahlı Qüvvələrinin təxribatının qarşısını alarkən fədakarcasına şəhidlik zirvəsinə ucalmış oğlu, Təcrübə-Sənaye Zavodunun əməkdaşı olmuş Rafiq Heydərov isə ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

Radiasiya Problemləri İnstitutu

AMEA-nın Radiasiya Problemləri İnstitutunun Radiokimya laboratoriyasının mühəndisi, fəlsəfə doktoru hazırlığı üzrə dissertant, baş leytenant Ramin Qəribov ölkə başçısının 24 iyun 2021-ci il tarixli sərəncamları ilə "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Qeyd edək ki, R.Qəribov 2020-ci ilin 21 sentyabrında "N" saylı hərbi hissəyə baş leytenant, artilleriyaçı zabit qismində təlimlərə cəlb olunub, 44 günlük Vətən müharibəsinə təlim keçdiyi batareya ilə birlikdə yola düşüb. Müharibə dövründə batareyası ilə birlikdə Murovdağda, daha sonra Ağdam, Füzuli və Cəbrayıl istiqamətlərində vuruşub, Cəbrayıl istiqamətində gedən döyüşlərdə yaralanıb, müalicə olunduqdan sonra yenidən öz artilleriya batareyasına qayıdıb. Batareya komandiri yaralandığından artıq batareya komandiri vəzifəsini icra edərək Xocavənd istiqamətində gedən şiddətli döyüşlərdə düşmənə sarsıdıcı zərbələr endiriblər.

Polimer Materialları İnstitutu

İşğal altındakı ərazilərimizin azad olunması uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət göstərdiklərinə görə, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə təltif olunan hərbi qulluqçular arasında AMEA-nın Polimer Materialları İnstitutunun Gözətçilər şöbəsinin rəisi, mayor Şəmsəddin Hüseynov da var.

Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə, Ş.Hüseynov "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

İnformasiya Texnologiyaları İnstitutu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 24 iyun 2021-ci il tarixində "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında" Sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Laçın rayonunun işğaldan azad olunması uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş 2643 hərbi qulluqçu "Laçının azad olunmasına görə" medalı ilə təltif olunub.

Təltif olunanlar arasında AMEA İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşı Şahin Şükran oğlu Rəsulov da var.

Qeyd edək ki, Şahin Rəsulov 2020-ci ilin sentyabr ayında səfərbərlik üzrə hərbi xidmətə çağırılıb. Füzuli, Xocavənd, Cəbrayıl və Laçın rayonları uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 18-də Füzuli cəbhəsində yaralansa da, 15 günlük müalicədən sonra yenidən döyüşlərə qatılıb.

Şəhidə məxsus materiallar Tarix Muzeyinə təhvil verilib

Vətən müharibəsinin şəhidi kapitan Əsəd Fərhad oğlu Həsənova məxsus materiallar AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinə təhvil verilib.

Materiallar muzeyin əməkdaşı Şəfa Mövsümov tərəfindən təqdim edilib. Qeyd edək ki, Əsəd Həsənov 1988-ci il aprelin 16-da İmişli rayonunun Şahverdili kəndində anadan olub.

Əsəd Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissədə qərargah rəisi idi və düşmənin mövqelərinin, üç batareyasının məhv edilməsində fərqlənib. O, oktyabrın 1-də Ağdam rayonu istiqamətində şəhid olub, İmişli rayonunda dəfn edilib. Ailəli idi, 3 yaşlı Mələk adında qızı və 2 yaşlı Hüseyn adında oğlu yadigar qaldı.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib. Ağdam rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə, "Ağdamın azad olunmasına görə" medalı ilə təltif olunub.

Professor Tərlan Məmmədov:

“Hazırladığımız peyvənd tək dozada kifayət edəcək təsir gücündədir”

Türkiyənin Biotexnologiya İnstitutunun Peyvənd Elmi Komitəsinin üzvü, Akdeniz Universitetində fəaliyyət göstərən azərbaycanlı professor, AMEA-nın müxbir üzvü Tərlan Məmmədov və onun rəhbərlik etdiyi tədqiqatçılar qrupu tərəfindən COVID-19-a qarşı peyvənd və sprey formasında dərman hazırlanıb.

“Elm” qəzeti koronavirus əleyhinə yeni peyvəndin üstünlükləri, onun virusun yeni ştammına qarşı nə dərəcədə effektiv olması və digər suallara aydınlıq gətirmək üçün COVID-19-a qarşı peyvənd hazırlayan ilk azərbaycanlı alim Tərlan Məmmədovla müsahibəni təqdim edir.

- Tərlan müəllim, öncə rəhbərlik etdiyiniz tədqiqatçılar qrupu ilə bu istiqamətdə birgə fəaliyyətinizdən danışardınız.

- Təxminən 1 il 3 ay öncə biz Akdeniz Universitetində bu istiqamətdə işlərə başladıq və COVID-19-a qarşı həm peyvəndlər, həm dərman, həm də COVID-19 xəstələrində antikor səviyyəsinin təyin edilməsi üçün kitlər hazırladıq. İndiyə kimi laboratoriyada görülməsi olan bütün işlər uğurla tamamlandı. Mühüm testlər artıq başa çatmışdır. Bəhs etdiyimiz peyvəndlərin heyvanlar üzərində testləri göstərdi ki, bu peyvəndlərin heyvanlara vurulması ilə onların qanında yüksək funksional antikorlar sintez edilir. Ən mühüm test olan virusu neytrallaşdırma testlərini Türkiyənin digər universitetləri ilə birgə tədqiqatlarla başa çatdırdıq. İşlərin davamını xüsusi laboratoriyalarda görmək tələb olunduğundan SARS-CoV-2 virusu neytrallaşdırma testləri türkiyəli professor Aykut Özdarendelinin laboratoriyasında aparıldı və bizim bu yöndə birgə işlərimiz var. Bir neçə ay öncə professor virusu neytrallaşdırma testləri həyata keçirdi və mənə zəng edərək virusu neytrallaşdırma fəallığı yüksək olan peyvəndin əldə olunduğunu bildirdi. Qeyd etmək istəyirəm ki, professor Aykut Özdarendeli Türkiyədə inaktiv vaksini hazırlayan elm adamıdır. İnaktiv vaksin Türkiyədə yeganə vaksindir ki, müəyyən sınaqlardan keçib və 3-cü klinik sınaq mərhələsindədir. Professor Aykut Özdarendeli mənə zəng etdi, sevinclə bildirdi ki, bu peyvəndlər çox gözəl peyvəndlərdir və SARS-CoV-19 virusunu çox güclü şəkildə blok edə bilir. Bu, o deməkdir ki, bizim 1 il magistr və aspirantlardan ibarət komandamla çox gərgin işlərimiz hədər getmədi və nəticədə çox güvənilir və təsirli peyvənd hazırlamağa nail olduq. Yəni bu peyvəndlər insanlar üzərində testləri tamamladıqdan sonra bir güvənilir protein təməlli peyvənd kimi insanlara vurula bilər. Bu peyvəndlə əlaqəli elmi nəticələr nüfuzlu elmi jurnala göndərilib və “BioRxiv”də çap edilib.

Bir daha vurğulayım ki, artıq bütün işlər tamamlanıb. Yaşıl bitki əsaslı hər iki peyvənd heyvanlar üzərində və canlı virusla uğurlu nəticələr verib, artıq insanlar üzərində sınaqdan keçirilməyə hazırdır.

Qeyd etdiyim kimi, biz həmçinin COVID-19 xəstələrini müalicə etmək üçün mühüm protein təməlli dərman da hazırladıq. Bu dərman virusun reseptoru olan anqiotensin çevirici fermenti 2, ACE2-dir. Biz bu fermenti bitki hüceyrələrində sintez etdik və istehsal səviyyəsi (təxminən ~ 0.75 q / kq yarpaq biokütləsində), təmizlənmə verimi (təxminən ~ 0.50 q/kq yarpaq biokütləsində) və virusu zərərsizləşdirmə fəaliyyəti baxımından (1 mikroqram/ml) bu bitkidə hazırlanmış dərman başqa şirkətlər və universitetlərin hazırladığı ACE2 ilə müqayisədə ən güclü oldu. Bu dərman SARS-CoV-2 virusunu neytrallaşdırma testləri Türkiyənin Ankara Universiteti Baytarlıq Tibb Fakültəsi Viroloji Bölümündə prof. dr. Aykut Ozkulun laboratoriyasında aparıldı. Bu dərman virusu neytrallaşdırma testlərinin nəticəsinə görə bu vaxta qədər dünyanın müxtəlif laboratoriyalarında hazırlanmış ACE2 preparatı içərisində ən güclü, təsirli dərman oldu. SARS-CoV-2-ni bloklama gücü: 1 mikroqram/ml oldu. ACE2 ilə əlaqəli tədqiqatların çap olunması üçün əlyazma “Scientific Reports” jurnalına göndərilib.

- Günümüzdə virusla təsirli mübarizə üçün kifayət qədər dərman və peyvəndlər var. COVID-19-a qarşı hazırlanan yeni peyvənd və dərmanın üstünlüyü nədir?

- Ümumiyyətlə, zülal əsaslı peyvəndlər daha etibarlı hesab olunur. Bizim peyvəndin də digər peyvəndlərdən üstünlüyü zülal təməlli olmasıdır. Eyni zamanda orqanizmə daxil edilən zülalın miqdarı məlum olduğundan, dozalara nəzarət etmək də mümkündür. Bundan əlavə, zülal əsaslı peyvəndlərin üstünlüyü virusa qarşı yüksək anticisim sintez etmək qabliyyətinə malik olmasıdır. Bu növ peyvəndlər virus mutasiyalarına qarşı dayanıqlı olması ilə də üstünlüyünü qoruyur.

Qeyd edim ki, bu gün insanlar üçün istifadə edilən peyvəndlər inaktiv (SINOVAK), mRNA tipli peyvənd (Pfizer-BioNTech, Moderna), DNT tipli (AstraZeneca, Rusiyanin sputnik peyvəndi) peyvəndləridir. RNT peyvəndi sintetik RNT molekullarını insan hüceyrələrinə transfer edən yeni bir peyvənd növüdür. Bu peyvənd Amerikada və İsraildə insanların çoxuna vurulan peyvənddir.

Xüsusilə vurğulayım ki, bizim peyvənd rekombinant DNT texnologiyası əsasında yaradılmış zülal (protein) təməllidir. İnaktiv peyvənd kimi bu peyvəndin də etibarlılığı illərlə sınaqdan keçirilib. Biz virusun protein genini bitki hüceyrələrinə transfer edirik və o genlər bitki yarpaqlarına keçir. Beləliklə, bitkidə o genin məhsulu olan zülallar sintez olunur. Sonra yarpaqlar toplanır və xüsusi texnologiyalar vasitəsilə təmizlənərək peyvəndlər alınır. Bu, inqilabi bir texnologiyadır və bitki keçici ekspressiya sistemi texnologiyası adlanır. Nəyə görə keçicidir? Çünki burda gen bitki hüceyrələrinə daxil olduqda bitki genomuna nüfuz olunmur (yəni bitki genomuna girmir). Həmin o genin məhsulu olan peyvənd alınır.

Tarixən elmə çoxdan məlum olan üsulla hazırlanan peyvəndlərin çatışmazlıqları çoxdur, virusa davamlılığı da aşağıdır. Bundan əlavə, bu gün bazarda olan əksər peyvəndlərin bir neçə dozada tətbiq olunması tələb olunur. Lakin bizim hazırladığımız peyvənd tək dozada kifayət edəcək təsir gücündədir.

Tədqiqat qrupumuz yeni peyvəndlə yanaşı, dərman peraparatı da hazırlayıb. Potensial müalicəvi əhəmiyyətli bu dərmanın virusu bloklamaq gücü testlər nəticəsində sübut olunub. Həm peyvəndimizin, həm də dərmanın effektivliyi yüksəkdir.

- Açıqlamanızda bildirmisiniz ki, xüsusi növ tütün bitkisində sintez edərək aldığınız zülal təbiətli dərman həm sprey, həm də inyeksiya formasında müalicədə istifadə edilə bilər. Yeni dərmanın qoruyucu immun reaksiyası ilə bağlı insanlar üzərində klinik araşdırma aparılıbmı?

- Virusun reseptoru olan ACE2-nin (angiotensin çevirici fermenti 2) bizim bədənimizdə önəmli rolu var. Bu ferment təzyiqin tənzimlənməsi, ağciyər və digər orqanların funksiyasında böyük əhəmiyyət daşıyır. Təsəvvür edin ki, virusun reseptoru həmin molekuldur. Virus bu reseptora bağlandığı üçün molekulu blok edir və orqanizmdə həmin fermentin azalması baş verir, nəticədə xəstəliklər yaranmağa başlayır. Mən bu fermentin rekombinant olaraq bitkilərdə müxtəlif formalarını aldım. Nəticədə aparılan testlər göstərdi ki, əldə olunan dərman SARS-COV-2 virusunu üstün məhvetmə gücünə malikdir.

2020-ci ilin mart ayında, artıq tədqiqatlara başladığımız ərəfədə ACE2 fermentinin orqanizmdə rolunu nəzərə alaraq, onun elə bir formasını hazırlamalıydıq ki, hüceyrəyə zərər vurmadan virusu blok edə bilsin. Tədqiqatlar nəticəsində bu fermentin çox miqdarda yaradılmasını təmin etdik, artıq onu bitkidən yüksək miqdarda ala bilirik. 1 kq bitkidən təxminən 0,5-0,6 qram, bəzən isə 1 qram əldə edirik. Xaricdən alınan bu fermentin 10 mikroqramı təxminən 300-400 dollara başa gəlir. Biz isə bunu öz texnologiyamız vasitəsilə qramlarla sintez edirik. Əsas məqsəd isə yüksək təsir gücünə malik keyfiyyətli və qiymət baxımından sərfəli dərman almaqdır. Dərmanın istifadəsinə gəldikdə isə deyə bilərəm ki, bu, həm birbaşa inyeksiya formasında, həm də sprey kimi tətbiq edilə bilər. Qeyd olunan istiqamətdə elmi nəticələrimiz dünyanın nüfuzlu “Scientific Reports” jurnalına göndərilib. “BioRxiv”də yayımlanıb.

- Dərman və peyvəndin yaxın zamanda kütləvi istehsalının başlanılmasına ümid edə bilərikmi?

- Bir alim olaraq, mən öhdəmə düşən mərhələni həyata keçirdim. Artıq laboratoriya səviyyəsində təsdiq olunmuş, COVID-19-a qarşı yüksək təsiretmə qabiliyyətli peyvənd və dərman əldə edilib. Bundan sonrakı mərhələ isə bazar qiymətləndirməsi məsələsidir. Ümid edirəm ki, Azərbaycanda peyvənd istehsalına maraq göstərən şirkətlər var və bu işdə maddi dəstək göstərə bilərlər.

Hazırladığımız dərmanla da bağlı önəmli testlər aparılıb. Nəticələrə görə, dərman yüksək göstəriciliyə sahibdir. Ümidvaram ki, istehsalı ilə də bağlı addımlar yaxın zamanlarda atılacaq.

- Məlumdur ki, virusun davamlı mutasiyaya uğraması daha effektiv peyvəndin yaradılmasını çətinləşdirir. Bu gün biotexnoloji inkişaf peyvənd sənayesinə necə təsir edir?

- Bundan öncəki müsahibələrimdə də vaksinlər və onların xarakteristikası barədə məlumat vermişəm. Bu gün tətbiq olunan vaksinlər barədə ictimaiyyətin məlumatı var. Bunların əksəriyyəti biotexnologiyalar vasitəsilə, digər qrup vaksinlər isə klassik üsulla hazırlanır. Məsələ ondadır ki, virus mutasiyaya uğradıqca hazırlanan peyvənd də yenidən işlənmə tələb edir.

Biz yeni texnologiya əsasında protein əsaslı peyvəndlər sintez edirik. Mutasiyaları nəzərə alaraq, yeni sekvenslər yaradırıq. Yeni peyvəndimizin üstünlüyü də ondadır ki, mutasiyalara qarşı daha effektivdir.

Qeyd edim ki, hazırda tanınan peyvəndlərin bir qismi üçüncü nəsil texnologiyaların iştirakı ilə hazırlanır.

- Peyvənddən sonra da koronavirusa yoluxub xəstəliyi ağır keçirənlər var. Bu məsələyə də münasibətinizi öyrənmək istərdik.

- Koronavirusa təkrar tutulma mümkün haldır. Peyvənd bədənə vurulubsa, ona qarşı orqanizmdə antikor (antitel) sintez olunmalı və bu da virusu neytrallaşdırmalıdır. Antitel lazımi miqdarda sintez olunursa, xəstəliyə qarşı immunitet yaranır, əks halda yenidən xəstəliyə tutulma riski ortaya çıxır. Deməli, əgər peyvənd vurulduqdan sonra da antikor kifayət qədər sintez olunmayıbsa, xəstəlik təkrar yaşana bilir.

Ümumilikdə antitelin sintez olunması bədənin spesifik xüsusiyyətlərindən irəli gələn məsələdir. Digər yandan peyvəndin qoruyuculuq göstəricisi də şərtdir. Bir insanda peyvənddən sonra koronavirusa təkrar yoluxma varsa, daha güclü təsir edən peyvəndə müraciət etməlidir ki, antikor sintez oluna bilsin.

Bildiyimiz kimi, virusa yoluxub sağlandan sonra orqanizmdə antitellərin səviyyəsini müəyyən etmək üçün antitel testlərinin aparılması tələb olunur. Türkiyədə hazırda antikor testləri üçün kitlər istehsal edən heç bir şirkət yoxdur. Protein təməlli antigenlər bazasında biz COVID-19 xəstələrində və ümumiyyətlə insanlarda COVID-19-a qarşı antikor səviyyəsini təyin etmək üçün 3 kit hazırladıq. Bununla bağlı Türkiyənin Səhiyyə Nazirliyinə məlumat verdim. Bu təşəbbüs yüksək qiymətləndirildi və maddi olaraq istehsalı çox ucuz başa gələn bu kitlər 100 koronavirus xəstəsi üzərində yoxlanıldı. Xaricdə hazırlanan bahalı kitlə (EUROIMMUN, Lübeck, Germany kitl) eyni göstəriciləri olduğu müəyyən edildi. Hazırda isə kitlərin istehsalı ilə bağlı icazə alınması mərhələsindəyik.

Nərgiz QƏHRƏMANOVA
ELM

YUBİLEY

Ölkəmizdə torpaqşünaslıq və radiasiya elmlərinin inkişafında mühüm xidmətləri olan alim

İyunun 30-da özünəməxsus süni və təbii radionuklidlərin Azərbaycan ərazisində yayılmasının ilk miqrasiyası işlərinin həyata keçirilməsi və onların xəritələrinin tərtib edilməsi üzrə tanınmış alim, Radiasiya Problemləri İnstitutunun Radioekologiya laboratoriyasının müdiri, “Torpaqşünaslıq” ixtisası üzrə AMEA-nın müxbir üzvü Mahmud Abdulla oğlu Abdullayevin 80 yaşı tamam olub.

Uşaqlığı Böyük Vətən Müharibəsi illərinə təsadüf etsə də, bu, onun elmi fəaliyyətinin məhsuldar olmasına heç bir mənfi təsir göstərməmiş, əksinə öz mərdliyi və cəsarəti ilə seçilən Mahmud müəllim Azərbaycanda torpaqşünaslıq sahəsinin inkişafında əvəzsiz xidmətlər göstərərək ən təhlükəli ərazilərdə (buna 1986-cı ildə Çernobıl Atom Elektrik Stasnsiyasında baş vermiş partlayış zamanı radiasiya dumanı şüalanması nəticəsində iflic vəziyyətə düşmüş ərazilərdə 5 dəfə bilavasitə yaxından iştirakı bariz nümunədir) öz elmi tədqiqat işlərini yorulmadan, yüksək peşəkarlıqla davam etdirmiş alimlərimizdən biri olmuşdur.

70-dən çox elmi əsərin və 4 qiymətli monoqrafiyanın müəllifi, bir çox yerli və beynəlxalq elmi konfranslarda, seminarlarda yaxından itirak etmiş (1994-cü ildə İstanbulda Radiasiya Prosesləri üzrə IX beynəlxalq konfransda elmi kadrların seçilməsində baş məsləhətçi olmuşdur), keçmiş SSRİ ölkələrinin qabaqcıl institutları və elm müəssisələri ilə sıx əlaqələr qurmuş, ölkəmizdə müxtəlif illərdə bir çox elmi şuraların üzvü, çox sayda doktorluq dissertasiyasının opponenti olmuş Mahmud müəllim öz zəngin təcrübəsi və çoxşaxəli elmi fəaliyyəti ilə Azərbaycan elminə böyük nailiyyətlər bəxş etmiş alimlərimizdəndir. O, Azərbaycanda torpaqşünaslıq və radiasiya elmlərinin inkişafındakı xidmətlərinə görə, AMEA Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif olunmuşdur.

Bir çox elmi və fəxri adlar almasına rəğmən, qəlbən kövrək, təvazökar, işinə, peşəsinə, ailəsinə və dostlarına (xüsusən də uzun illər çiyin-çiyinə işlədiyi və ən yaxın dostu, mərhum akademik Cəlal Əliyevi ehtiramla və sevgiylə xatırlayarkən) sadiq olan Mahmud müəllimi təbrik edir, yeni-yeni elmi nailiyyətlər arzulayırıq.

Alidə ZEYNALOVA
ELM

Aşqarlar Kimyası İnstitutu beynəlxalq mükafata layiq görülüb

AMEA-nın akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu mənzil qərargahı ABŞ-ın Hyuston şəhərində yerləşən Dünya Biznes Konfederasiyasının (WORLDCOB) təsis etdiyi “THE BIZZ Winner” beynəlxalq mükafatına layiq görülüb.

Qurumun regional direktoru Roman Nahornikin imzası ilə Aşqarlar Kimyası İnstitutunun baş direktoru, akademik Vaqif Fərzəliyevə ünvanlanan rəsmi məktubda bildirilir ki, mükafat tətbiqi əhəmiyyətli elmi tədqiqatlarla biznesə verdiyi dəstəyə görə verilir.

Məlumatda qeyd edilir ki, “THE BIZZ Winner” beynəlxalq mükafatına layiq görülən elm, biznes müəssisləri WORLDCOB-nın İdarə Heyətinin qərarı ilə seçilir.

Mükafatlandırmanın 27- 28 avqust 2021-ci il tarixlərində Hyuston şəhərində onlayn formada keçirilməsi nəzərdə tutulur.

Kolloidal gümüş suyu və faydaları

Gümüş elementinin nəyə qadir olduğu tarix boyu açıq-aydın izah edilmədiyindən, onun olduqca faydalı və inkişafa aparan xüsusiyyətləri də bizə az məlumdur. Adi metal hesab etdiyimiz gümüş keçmişdə tibbdə geniş istifadə edilmiş, hətta bu element səhiyyənin bir parçası kimi qəbul olunmuşdur. Bəs belə olduğu halda, müasir dövrdə nəyə görə bu qədər xəstəliklərdən xilas ola bilmirik? Üstəlikdə hər il yeni xəstəliklər "peyda" olur və bütün dünya bu xəstəliklərə qarşı mübarizə üçün milyonlar xərcləyirlər.

Gümüşün faydaları Yuli Sezar dövründən bəri bəllidir. Romalılar kiçik gümüş parçalarını yanıqları, kəsikləri və yaraları müalicə etmək üçün, yunanlar su və şərab qablarını bakteriyalardan təmizləmək üçün istifadə edirdilər. Roma İmperiyası dövründə yalnız gümüş qablarda su daşıyan əsgərlərə döyüşə getməyə icazə verilirdi, çünki Romalılar gümüş qabların suyu təmiz və saf saxladığını bilirdilər. Həkimlər gümüşün faydalarına görə xəstələrə daha sağlam olmaq üçün yeməyi gümüş qablarda yemək, gümüş çəngəl-bıçaq-qaşıqdan istifadə edərək yemək yemələrini tövsiyə edirdilər.

Dr. Henry Krookes 1900-cü ilin əvvəlində gümüşü bir çox xəstəliyin müalicəsində istifadə etmişdir. Tədqiqatçı elmi işləri nəticəsində mövcud olan heç bir mikrobun kolloid gümüşə qarşı 6 dəqiqədən çox dözə bilmədiyini müəyyən etmişdir.

Dr. J.Mark Hovel British "Medical Journal"da kolloid gümüşün virusların məhv edilməsi üçün xüsusilə təsirli olduğunu qeyd etmişdir.

İkinci Dünya müharibəsindən bir az əvvəl qiymətli antibiotik olan (Fleminq, 1929) təbii penisillin kəşf edildi və lakin tələbatı ödəmədiyindən qısa müddətdə bu dərman kimyəvi yolla istehsal edilməyə başlanıldı. Beləliklə, tibbdə patenti alınmış sintetik kimyəvi dərmanlarla böyük dərman firmalarını çox varlı edən yeni bir dövr başlanıldı. Təbiətdə olan heç bir şeyə görə isə patent almaq mümkün deyildi, ona görə də müalicə zamanı heç bir fəsad verməyən gümüşün faydalarından varlana bilməyənlər bunu hər yolla insanlara unutdurmağa çalışırdılar. Gümüşün kolloid məhlulunun ilk antibiotik maddə olduğu heç də qaranlıq deyildir. Bu gün gümüş və onun kolloid məhlullarının demək olar ki, infeksiyaların tüğyan etdiyi hər bir yerlərdə - infeksiya, iltihab, yanıq və bir çox xəstəliklərin müalicəsində istifadə edilən dərmanlara qədər səhiyyə məhsullarında çox geniş spektrdə antimikrob özəlliyinə görə istifadə olunur. Müasir dövrdə Amerikadakı doğulan körpələrə doğuşdan dərhal sonra gözdə meydana gələcək infeksiyaların qarşısını almaq məqsədilə gümüş tərkibli göz damcılarından istifadə edilir. Gümüş 95 faizdən çox nisbətdə infraqırmızı şüaları əks etdirməyə qabildir. Gümüşə təmas edən radioaktiv enerjinin 95 faizi geri əks olunur. Yəni gümüş radiasiyaya qarşı da təsirlidir. Qısa müddətdə 450-650 növ bakteriyanın DNT-sinin təbii quruluşunu pozaraq yox edə bilir. Ekzema, şəkər, allergiya və digər xəstəliklərə müsbət təsir göstərir. Yeni hüceyrələrin çoxalmasını dəstəkləyərək yaraların qısa müddətdə sağalmasını sürətləndirir. Kolloid gümüşün Dr. Xiaojian Yao tərəfindən HİV virusun tərkibini bir neçə dəqiqə ərzində yox etdiyi ilə əlaqədar araşdırması "Nanotexnologiya 2012 International Journal"da nəşr edilsə də, buna baxmayaraq bu metalın ecazkar bir dərman, xüsusən antibiotik maddəsi kimi olduğuna heç bir məhəl qoyulmadı.

Həkimlərin gümüş suyunu gözardı etmə səbəbi kapitalist dünya quruluşuna söykənir. 1906-cı ildə əksər dərman şirkətlərini satın alan milyoner Con D. Rokefeller kolloidal gümüşün onun dərman satışlarının qarşısında maneçilik edəcəyinin fərqində idi. Bu səbəblə Cudi Abraham Felxnerin köməyi ilə Amerikadakı bütün gümüş suyu emal müəssisələrindən, universitetin kimya və tibb fakültələrindən, elmi işlərdən gümüş suyu mövzusunun araşdırılmayacağı və bu təlimatı yerinə yetirməyən bütün professor və müəllimlərin lisenziyalarının əlindən alınacağını ciddi cəhdlə bildirdi. İşin maraqlı tərəfi budur ki, Rokefeller rəhbərlik etdiyi dərman şirkətlərinin önündə durmasına baxmayaraq, heç bir zaman öz ailəsinin və yaxınlarının kimyəvi yollarla alınan dərmanlardan istifadə etməsinə icazə verməmişdi. Elmi fantastika dünyasına baxsaq, qarşımıza çıxan bütün xəstəlikləri bir anda yaxşılaşdıran, insanları uzun müddət yaşadan, xüsusən xəstəliksiz sağlam həyat tərzi üçün dərman yaratmaq arzusunda olmuşdur. Bu arzunun həqiqət olması üçün görəsən gümüş metalı ola bilərmi?

Son vaxtlarda gümüş suyunun möcüzəli faydaları, ondan istifadə edənlərin sayının çox böyük sürətlə artdığı haqqında məlumatlar dərc olunur və sosial şəbəkələrdə ciddi cəhdlə təqdir olunur. Məlumata görə, gümüş suyu bir çox ağır, o cümlədən xərçəng, vəba, psorioz və virus xəstəliklərinə qarşı böyük təsiredici qüvvəyə malik olduğu sübut olunmaqdadır!

Bu baxımdan gümüş suyu haqqında tarixi araşdırma apardıq. Məlum oldu ki, gümüş suyundan istifadə bir neçə əsrlik tarixə malikdir. Bir maraqlı faktı qeyd etmək olar, XIV əsrdə Avropanın mərkəzində insanların 25 faizi vəba xəstəliyindən ölmüşdü. Yalnız qaraçılar bu xəstəlikdən can qurtara bilmişdilər. Onlardan heç bir kəs vəbaya tutulmamışdı və bu məsələ hər kəsi təəccübləndirmişdi. Sonradan məlum olmuşdu ki, qaraçılar gümüşü çox kiçik hissəciklərə parçalayaraq əzələlərin içərisinə, vücuda yeritmişlər ki, bu hissəciklər qan dövranı ilə bütün vücuda yayılaraq bakteriyaları məhv edirmiş. Sonralar gümüş suyunun faydalı olduğunu görüb zadəgan ailələri də süfrədə gümüş qaşıq, bıçaqlardan istifadə etməyə başladılar. Kəşf edildi ki, bu maddə antibiotik dərmanların əvəzləyicisi və ya antibiotik təsirli ola bilər. Antibiotiklərdən fərqi yalnız ondadır ki, bu maddə tamamilə təbiidir və içərisində hüceyrələri yoxedici, lakin insan orqanizminə mənfi təsir edəcək heç nə yoxdur. Beləliklə, uzun müddətdir ki, gümüş suyunun faydaları insanlardan gizlədilməyə çalışılmışdır. Lakin son illərdə dünyanın bir çox ölkələrində, xüsusən də qardaş Türkiyədə gümüş suyundan geniş istifadə olunmağa başlanılıb. Hətta gümüş suyu istehsal edən müəssisələr fəaliyyət göstərirlər. Ölkəmizdə isə gümüş suyu hazırlayan mütəxəssislər barmaq sayı qədər azdır. Kolloidal gümüş suyu hazırlandıqdan sonra qısa bir müddətdə istifadə olunmalıdır, yalnız o zaman bu maddə öz təsirini göstərə bilir. Bu haqda apardığımız ədəbiyyat araşdırması və kimyəvi biliklərə əsasən demək olar ki, gümüş suyu hazırlandıqdan 1,5-2 ay ərzində tərkibindəki elektrik yükü azalmadığı müddətdə istifadə olunmalıdır. Bir çox xəstəliklərdə məsələn, şəkər, bağırsaq, virus xəstəlikləri, soyuqdəymə, yaralanma hallarında, xərçəng və digər ağır xəstəliklərin müalicəsində gümüş suyu çox böyük faydaya malikdir. Xüsusən də xərçəng, teratoma və digər ağır xəstəliklərin yeni yarandığı vaxtlarda daha faydalıdır. Əvvəllər bir çox həkimlər gümüş suyunun faydalarına qarşı mənfi fikirdə olsalar da, indi onlar bu müalicədən kifayət qədər istifadə etməyi tərciyə edirlər. Ümumiyyətlə, gümüş suyu 3 min ildir ki, istifadə edilir və onun əks təsir göstərdiyi barədə mənbələrdə heç bir məlumat yoxdur. Gümüş suyu 1929-cu ilə qədər istifadə edilən effektli antibiotik dərman idi. Bu yalnız bakteriyalara deyil, həm də viruslara qarşı yüksək öldürücü təsir göstərir. 1938-ci ildə kimyəvi yolla alınan antibiotiklərin mövcudluğu ilə istehsalı daha ucuz olduğundan və baha qiymətə

satıldığından dərman firma sahibləri gümüş suyunu kölgədə qoymağı hədəf seçdilər. Kolloidal gümüş dedikdə suda mövcud olan nano-gümüş parçacıqları nəzərdə tutulur. İonlaşmış gümüş insan bədənində əsl gümüş hissəcikləri olan kolloidal gümüş kimi yaşamır. Yüksək keyfiyyətli kolloidal gümüş, saf su və 99.999% kimyəvi saf gümüşdən ibarətdir. Güclü absorbsiya və assimilyasiya təmin etmək üçün gümüş parçacıqları bir (1) mikron diametrindən az olmalıdır. Yüksək təsirli kolloidal gümüş məhsulu hazırlamaq üçün hissəciyin ölçüsü, təmizliyi, konsentrasiyası nəzərə alınmalıdır. Rəsmi mənada ilk üçünü tamamlamaq laboratoriya analizindən asılıdır. Partikül ölçüsünü təyin etmək üçün ən yaxşı üsul elektron mikroskopu fotoşəkilidir. Əsas olaraq kütləvi spektroskopiya və ya rentgen difraksiyası analizinin təmizliyi tələb olunur. Konsentrasiyanı müəyyən etmək üçün ümumi həll olunan qatqıların kimyəvi analizinə ehtiyac vardır. Kolloidal gümüş məhsulu əldə etdikləri şirkətlər analitik sertifikat almalıdırlar. Bu təhlilin sertifikatında saflıq, mikrobiologiya testi, gümüşün partikül ölçüsü, konsentrasiyası (ppm), pH və rəngi nəzərə alınmalıdır. Daimi istifadə üçün gümüş 5-20 ppm konsentrasiyasında olmalıdır. Baxmayaraq ki, müalicə zamanı heç bir əks təsir yaratmır, lakin uzunmüddətli daimi istifadə zamanı yüksək konsentratlı kolloidal gümüş məhsulları risk yarada bilər və müalicə yalnız həkim nəzarəti altında aparılmalıdır.

Kolloidal gümüşün terapiya istiqamətləri

Kolloidal gümüş suyu ən çox tanınmış və təsirli antibiotik maddədir. Qrammənfi, qrammüsbət bakteriya, göbələk və virusların məhv edilməsində sonsuz təsirə malikdir. Təbabətdə yerli antiseptik olaraq da istifadə olunur. Yara sahələrini xaricdən təmizləmək üçün tətbiq edilir. "Staphylococcus aurea (MRSA) stafilokoku" kimi yüksək davamlı mikro plazmalara qarşı yüksək təsirlidir. Jim Powellin "Science Digest" jurnalında yazdığı məqaləyə əsasən Kolloidal gümüş suyu antibiotik olaraq 650 fərqli mikroorqanizmi məhv etdiyi qeyd edilir. Bu təsir bakteriya, virus və göbələklərdə oksigen metabolizm fermentinin aradan qaldırılması ilə başlayır. Bu zəhərli mikroorqanizmlər oksigensiz qaldıqda məhv olurlar. Kolloidal gümüşün sağlam hüceyrələrə toxunmadığı, yalnız patogen hüceyrələrə təsir göstərdiyi məqalədə ətraflı izah edilmişdir. Laboratoriya tədqiqatları göstərir ki, gümüş mənfi bir ion şəklində DNT strukturuna zərbə vurur və onun replikasiya etməsinin (ikiləşmə) qarşısını alır, nəticədə bakteriya, virus və göbələklərin inkişafı dayanaraq məhv olurlar. Dr. Alfred Searle "Kolloidlərin sağlamlıq və xəstəliklərdə istifadə edilməsi" kitabında kolloidal gümüşün patogen mikrofloranın oksigen qaynağını məhv etdikdən sonra öz immunitet sistemini yaratdığını qeyd edir. 1909-cu ildə "Journal of the American Medical Association" dərgisində kolloid gümüşün əslində immunitet hüceyrələrinin faqositoz indeksini yüksəldə biləcəyinə işarə edən ilk tibb jurnalı oldu. Yuxarıda qeyd edildiyi kimi gümüş 650-dən çox müxtəlif xəstəliklərə səbəb olan patogenlərə qarşı effektlidir. Kolloidal gümüş suyu bakteriya və təkhüceyrəli patogen mikroorqanizmlərin fermentinin təsirini 6 dəqiqə ərzində məhv edir. Gümüş suyunun müalicəvi tərəfini müdafiə edən tədqiqatçılar gümüş tərkibli məhlulun içildikdə kolloid içərisindəki gümüş ionları arasında elektromaqnit cəzbetmə qüvvəsinin meydana gəldiyinə və beləliklə, patogen hüceyrələri öldürdüyünü qeyd edirlər. Belə ki, nəticədə orqanizmdə immun sistemin funksiyasını dəstəkləyir və möhkəmləndirir. Tədqiqatçılara görə kolloid gümüşdən istifadə zamanı insan ikinci bir immunitet sisteminə sahib olur. Gümüş orqanizmin zərərli mikroblarını məhv etməklə, vücudun öz təbii immunitet sisteminin mənfi yükünü azaldır, mikrob, virus və göbələklərin aktivliyi zəiflədir və getdikcə toksinləri təmizlənir. Gümüşün nazik bağırsaqdakı yüksək qatılığı həzmə kömək edən saprofit bakteriyaları məhv etməməsi də tədqiqatçılar tərəfindən testlərlə sübut olunmuşdur.

Bu "ikinci immunitet sistemi" əsas sistemlə paralel olmaqla çalışır. Dr. R. Beker tərəfindən zəif qatılıqda hazırlanmış kolloidal gümüş ilə xəstəlik arasındakı əlaqələr öyrənilmişdir: Belə ki, gümüşün qanda az miqdarda olması zamanı insanların qrip, soyuqdəymə və digər xəstəliklərə daha tez tutulması haqqında da məlumatlar vardır. İmmunitet sisteminin qeyri-kafi işinin səbəbi gümüşün qanda çatışmamasıdır. Bakteriya və virusların yox edilməsində gümüş xüsusi əhəmiyyət daşıyır.

Tədqiqatçının təcrübələri gümüşün geniş bir antibakterial və antiviral spektrli olduğunu, hər hansı bir əlavə təsir olmadan və digər orqanizm hüceyrələrinə zərər vermədən çalışdığını sübut etmişdir. "Orqanizm elektrik və xətt cərəyanları" kitabında qeyd edildiyi kimi Beker gümüşün xərçəng hüceyrələrini normal hüceyrələrə çevirmə və ya onları dəyişdirmə qabiliyyətinə sahib olduğunu sübut etmişdir. Gümüş ionlarının toxumaların mübadilə xüsusiyyətlərini yaxşılaşdırdığını, xərçəngli və digər anormal hüceyrələri yox etdiyi düşünülür.

Ayrıca gümüşün orqanizmin böyümə qabiliyyətinin sürətləndirməsi kimi bir bacarığının da olduğu və insan orqanizminin elektrik yükü keçiriciliyinin dəfələrlə sürətləndirməsi də tədqiqatçı tərəfindən qeyd edilmişdir. İsveçin Karolinska İnstitutunda Dr. Bjorn Nordstrom uzun illər ərzində xərçəng xəstəliyinin müalicəsi metodlarında gümüşü tədqiq etmişdir. Tədqiqatçının nəticələrinə əsasən digər həkimlərin xərçəngin terminal mərhələ hesab etdikləri mərhələsində bu xəstəliyin yaxşılaşdığı iddia edilir. Kolloidal gümüş suyu antibiotik və xərçəng əleyhinə təsirli dərman kimi bir çox şirkətlər tərəfindən satılır. Kolloidal gümüşün istehsalçısının iddialarına görə də təsirli və təhlükəsiz olduğu təqdir edilməkdədir. Nə qədər miqdardakı kolloidal gümüşün zərərli ola biləcəyi bilinmir. Lakin bədən toxumalarına həddindən artıq kolloidal gümüş dozalarının toplanılması böyrəklərə ziyandır və nevroloji cəhətdən ciddi sağlamlıq problemlərinə yol açа bilər (Dr. Brent A. Bauer-Mayo Klinikası). Gümüşün antibiotik xüsusiyyəti non-seçmə təsiri toksik "biosid" olmasından qaynaqlanır (Conatan Kampbell).

Lakin orqanizmdə gümüş ionlarının "olmaması" və bu "olmama" da heç bir xəstəliklərə yol açmır. Bir araşdırma zamanı 500 mg - 1,9 qram gümüş tərkibli protein itlər üzərində təcrübə edilmişdir. Bu miqdar 75 kq ağırlığında pasiyentə 10 ppm kolodial gümüş dəyərindədir. Qudman və Gilman insanlar üçün gümüşün təxmini toksiki-öldürücü dozasının 1000 litrdə 10 ppm qatılığı olan kolloidal gümüşün qısa müddətdə qəbul edilməsinin ola biləcəyini hesab edirlər. Dünyanın bir çox klinikalarında kolloidal gümüşün sızanaq, açıq yaralar, ayaq göbələkləri, ekzema (sədəf) xəstəliyi, uçuqlar (herpes), badamcıq iltihabı (angina), qrip, soyuqdəymə, diş ağrısı (ilktihabı), diş qanaması və parodontoz, ağız və boğaz infeksiyaları, göz infeksiyaları (konyuktivit, blefarit, keratit, qlaukoma), sistit, revmatizm, oynaq ağrıları, diabet (şəkər) xəstəliyi, ağızda qoxu, ağciyər iltihabı (vərəm), sinuzit, bütün növ yanıqlar, sidikyolu iltihabı, yumurtalıq iltihabı, prostatit, kəsik və açıq yaralar, dəri allergiyaları, qulaq-burunboğaz iltihabları, göz qapağı infeksiyaları, çibanlar, günvurmalar, qızılca, ağcaqanad və arı sancmaları, vəhşi heyvanların dişləmələri, saçların tökülməsi, flebit, qastrit və xora xəstəlikləri, ishal, hepatit, sirroz, parazit xəstəlikləri, bronxit, bronxoektaziya, səsbatma, hemorroid sindromu, qanqrena, donvurma, damar tutulmaları, dəri qaşınmaları, vaginal mikoz, günəş yanıqları, kandidoz, stomatit, orxit, prostatit, kolit, ishal, salmonella, pastit, sümük xəstəlikləri, qida allergiyaları, otit, xərçəng və digər bir çox xəstəliklərin müalicəsində olduqca faydalı olduğu praktik olaraq sübut olunmuşdur.

Sonda bir fikri daha çox vurğulamaq istəyirəm. Kolloidal gümüş suyunun faydası həm müalicə və həm də profilaktik məqsədlərlə istifadə edilir. Yəni bəhs etdiyimiz ağır xəstəliklərə, eyni zamanda indiki şəraitdə tüğyan edən koronavirusun müalicə və profilaktikası üçün düşünürəm ki, bu ecazkar dərmanın çox böyük faydası ola bilər!

Ramiz ƏLƏKBƏROV
AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun İnnovasiya və elmi-istehsalat şöbəsinin rəhbəri, biologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi ilə əlaqədar Milli Elmlər Akademiyasında nəşr olunan kitablar

1. Akademik Ramiz Mehdiyev. Nizami Gəncəvi: mütəfəkkirin irsi dünya mədəniyyəti və milli özünüdərk kontekstində (rus dilində). Bakı, "Elm", 2021, 100 s.
2. Həbibbəyli İsa. Böyük Azərbaycan şairi Nizami Gəncəvi (Azərbaycan, türk, rus, ingilis, çin, alman və gürcü dillərində). Bakı, "Elm", 2021, 176 s.
3. Kərimli Teymur. Nizami Gəncəvi və tarix. Bakı, "Elm ", 2021, 240 s.
4. Vəlixanlı Nailə . Nizami Gəncəvi və Azərbaycan Atabəylər dövləti (kataloq). Bakı, 2021, 16 s.
5. Ələkbərov Məmməd. Nizami Gəncəvi və Azərbaycan xalq yaradıcılığı. Gəncə, "Elm", 2021, 130 s. Transliterasiya edəni, nəşrə hazırlayanı və ön sözün müəllifi fil. f. d. Əzizağa Nəcəfzadə
6. Ordubadi Məmməd Səid. Nizaminin dövrü və həyatı (məqalələr toplusu - II kitab). Bakı, "Elm", 2021, 224 s. Ərəb əlifbasından transfoneliterasiya edib nəşrə hazırlayanı, tərtibçi və ön sözün müəllifi fil. e. d. Nailə Səmədova
7. Rzasoy Seyfəddin . Nizami Gəncəvi: etnogenez və mifologiya. Bakı, "Elm və təhsil", 2021, 120 s.
8. 'Yusifli Xəlil. Nizami Gəncəvi. Gəncə, "Elm" nəşriyyatı, 2021, 385 s.
9. Yusifli Xəlil, Pişnamazzadə Samir, Həsənov Elnur. Nizami Gəncəvinin şəcərə tarixi. Gəncə, "Elm", 2021, 182 s.
10. Əmirov Eldar. Şairlik şöhrətinin kölgəsində qalmış mütəfəkkir: Nizami Gəncəvinin elmi dünyagörüşü haqqında (rus dilində). Bakı, "Elm", 2021, 232 s.
11. Hacı Siracəddin . Nizami Gəncəvinin "Yeddi gözəl" məsnəvisinin şərhi (II kitab). Bakı, "Apostrof", 2021, 520 s.
12. İsmayılzadə Rauf. Nizaminin musiqi dünyası. Gəncə, "Elm", 2021, 159 s.
13. Muxtarov Əlimuxtar. Nizami Gəncəvi obrazı bədii ədəbiyyatda. Gəncə, "Elm", 2021, 206 s.
14. Təhməzova Elmira. Nizami Gəncəvinin dünyagörüşündə sosial və mənəvi dəyərlər. Bakı, "Avropa", 2021, 151 s.

Xarici nəşrlər

15. "Kardeş Kalemler" jurnalının böyük Azərbaycan şairi Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş Xüsusi buraxılışı. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Avrasiya Yazarlar Birliyinin birgə nəşri. Türkiyə, Ankara, İyun 2021, № 174, 100 s.
16. Şota Rustaveli və Nizami Gəncəvi. Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutu, Kembric Universiteti və AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun birgə elmi tədqiqat layihəsi. Gürcüstan, Tbilisi, 2021, 507 s

Azərbaycan toponimləri ilə bağlı yeni kitab nəşr edilib

AMEA-nın akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun dissertantı, türk dünyasının toponimik tədqiqatçıları arasında özünün dəst-xətti, orijinal yanaşması ilə seçilən, qayaüstü rəsmlərin və qədim xalçaların yorulmaz araşdırıcısı Şakir Qabıssanlının "Bəşəri tarixə bağlı Azərbaycan toponimləri" adlı yeni kitabı çapdan çıxıb.



Kitab AMEA-nın akademik H.Ə.Əliyev adına Coğrafiya və Folklor institutlarının Elmi şuralarının qərarı ilə nəşr edilib. Əsərin elmi redaktoru Coğrafiya İnstitutunun şöbə müdiri, c.ü.f.d., dosent Zaur İmranidir.

Müəllif kitabında özünün fərqli yanaşmaları ilə bəşər tarixinin ilkin qaynaqlarına bağlı toponimləri üzə çıxarır və onların Azərbaycanla bağlılığını önə çəkir. Adəm, Nuh peyğəmbərlərlə bağlı toponimlərin məhz Azərbaycana aid olmasını dini və elmi əsaslarla sübut etməyə çalışır. Toponimlərin areallarının dünyaya bağlılığının Azərbaycanla əlaqələri göstərilməklə yanaşı, dilçilik, fəlsəfi və tarixi baxımdan başlanğıc təkanının Azərbaycandan başlanması tarixi faktlarla irəli sürülür. Digər bir tərəfdən, Azərbaycanla bağlı qədim toponimlərin saxtalaşdırılma amilləri üzə çıxarılır, qədim tarixi adların mifoloji-fəlsəfi mənaları özünə qaytarılır. Bir çox toponimlərin dünyanın ilk petroqliflərı olan Qobustan qayaüstü təsvirlərinin sivil davamı sayılan xalça işarələri ilə əlaqəsi məntiqi mənalarla önə çəkilir.

Sonda müəllif Azərbaycan toponimlərinin tarixi-fəlsəfi cəhətdən yenidən işlənməsi zəruriyyətini ortaya qoyur, Qobustan adının Qabıssan adı ilə əvəzlənməsinin tarixi baxımdan vacib olduğunu diqqətə çəkir.

Azərbaycanlı alimlərin kitabı Rusiyada çap olunub

AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun Elmi-texniki informasiya şöbəsinin müdiri, professor Ramiz Aslanovun və Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin Cəbr və həndəsə kafedrasının müdiri, professor Arif Səlimovun həmmüəllifi olduğu "Kazan Universiteti və Azərbaycanda həndəsənin inkişafı" adlı kitab Rusiyada işıq üzü görüb.

